QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 081 (6281) 7 may 2021-ci il **Qiyməti 40 qəpik** "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Qafqazın incisi Şuşa dünyanın ən gözəl şəhərinə çevriləcək!

Prezident İlham Əliyev: "Əziz Şuşa, sən azadsan! **Əziz Şuşa, biz qayıtmışıq!**"



Bax 2

## YAP Gənclər Birliyi görüş keçirib

Mayın 6-da Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi "İşğaldan azad olunmuş ərazilərdə vəziyyətin bərpasında gənclərin rolu" mövzusunda görüş keçirib. SİA-nın verdiyi məlumata görə, görüşdə Yeni Azərbaycan Partiyasının Təftiş Ko-



missiyasının üzvü, Milli Məclisin Təbii Ehtiyatlar...

Bax 3

## Samir Nuriyev: İşğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri dövlətimizin başçısının daim diqqət mərkəzindədir

Bax 3



İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci ilin 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə...

## Şəhidlik zirvəsinə qalxan qəhrəman



Bax 12

Bax 3



Hulusi Kılıç: **Ermənilərin müharibə cinayətlərini araşdıracaq komissiya tarixi missiya həyata keçirəcək**

Ermənilərin müharibə cinayətlərinin araşdırılması məqsədilə Türkiyədə beynəlxalq komissiyasının təsis edilməsi mühüm əhəmiyyət...

## Blinken öz tvitində ermənilərə hansı eyhamı vurub?

**Birinci Qarabağ müharibəsində əsir düşmüş 4000 nəfər hərbi və mülki əsirlər barədə hələ də heç bir məlumat yoxdur və Azərbaycanın dəfələrlə (!) etdiyi...**




Bax 5



## "Ramazan bayramı günlərində əlavə məhdudiyyətlər tətbiq olunmayacaq"

Bax 5

**Ölkəmizə gətirilən və tətbiq olunan COVID-19 əleyhinə bütün vaksinlər təhlükəsiz və effektivdir. Azərbaycanda iki dozanı almış vətəndaşlar arasında yoluxma sayları çox azdır. Yoluxanlar da xəstəliyin ağır formasından tam qorunurlar. AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ...**

## RİA Novosti: "Paşinyan Qarabağla bağlı razılaşmaları yerinə yetirəcəyini vəd etdi"



**İrəvan Dağlıq Qarabağla bağlı üçtərəfli razılaşmaları yerinə yetirmək üçün hər cür səy göstərməyə hazır olduğunu təsdiqləyir. SİA xəbər verir ki, bu sözləri Ermənistanda baş nazir vəzifəsini icra edən...**

Bax 11

## Erməni barbarlığı: dağıdılan tarixi və dini abidələr

Bax 10



### Əli Kərimli kompüterlərə hansı virusu salıb?



Bax 14

### "Moskva Müqaviləsi imzalananda erməni dövləti yox idi"



Bax 15

### Alman məşqçi Çempionlar Liqasında rekorda imza atıb



Bax 16

# Qafqazın incisi Şuşa dünyanın ən gözəl şəhərinə çevriləcək!

*Prezident İlham Əliyev: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq!"*



**Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi. Azərbaycan torpaqları işğaldan azad edildi. 2020-ci ilin noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi.**

Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciətində Şuşanın azad olunduğunu bildirib: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" Cənab İlham Əliyev qeyd edib ki, biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! "Bu 17 il ərzində Mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək", deyən dövlət başçısı bunun asan məsələ olmadığını qeyd edib: "O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda, diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq". Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları çökmüş oldu. Xalqa müraciətində "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim", deyən dövlət başçısı bildirib ki, ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim: "Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"

Əlbəttə ki, Şuşa işğal altına düşəndə Azərbaycan belə gücə malik dövlət deyildi. Azərbaycan iqtisadiyyatı böhran dövrünü yaşayırdı, ölkədə də hərc-mərclik hökm sürürdü. 1992-ci ilin 8 may tarixində Şuşa işğal olundu. Erməni xəyanətinin nəticəsi kimi, Şuşa kimi möhtəşəm şəhər XX əsrdə 3 dəfə erməni təcavüzünün qurbanı olub. Ötən əsrin əvvəli 1905-1907-ci illərdə Şuşa şəhəri ermənilər tərəfindən hücuma məruz qalıb və yandırılıb. 1920-ci ildə şəhərin xeyli hissəsi ermənilər tərəfindən dağıdılıb. 3-cü dəfə 1992-ci ilin mayında ermənilər bu şəhəri tamamilə işğal edilib. İşğal zamanı 1860 azərbaycanlı yaralanıb, 480-i həlak olub, 22 min nəfər öz yurdundan didərgin düşüb. Əsir götürülmüş 68 soydaşımızın taleyi barədə bu günə qədər məlumat yoxdur. Şuşanın işğalı zamanı yerli əhalinin 193 nəfəri şəhid, 102 nəfəri isə əlil olub. Şuşa şəhərində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600-ə yaxın tarixi-memarlıq abidəsini, o cümlədən, Pənahəli xanın sarayını, Cümə məscidini, Aşağı Gövhər Ağa məscidi, Xurşid Banu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən, Şuşa Tarix Muzeyi, Dövlət Xalça Muzeyinin filialı və Xalq Tətbiqi Sənəti Muzeyi, Qarabağ Dövlət Tarix Muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talayıb və məhv ediblər. Ermənilər insanlığa sığmayan vəhşiliyə də əl ataraq, Üzeyir Hacıbəyli, Bülbül, Natəvan kimi tarixi şəxsiyyətlərin heykəllərini belə güllələyiblər.İşğal olunmuş ərazilərdə erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə, mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Konvensiyasına ziddir.

## "ŞUŞA İŞĞAL ALTINA DÜŞƏNDƏ BİZİM ƏSAS PROBLEMLƏRİMİZ HƏM O İDİ Kİ, ORDUMUZ YOX İDİ"

Şuşa müqəddəs bir şəhərdir. Biz bilirdik ki, bu işğal tarixi müvəqqətidir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət, ölkənin gücü, iqtisadi inkişafı, dünya birliyində yeri və milli ordusu şuşalıları Şuşaya qaytaracaqdı. Belə də oldu. "Şuşa işğal altına düşəndə bizim əsas problemlərimiz həm o idi ki, ordumuz yox idi, rəhbərlik öz vəzifə borcunu yerinə yetirə bilmirdi", deyə Ali Baş Komandan vurğulayıb.Bu gün işğaldan azad olunan Şuşada Azərbaycan bayrağı ucalır. Şuşa məscidində azan səsi eşidilir, işığı ətrafa yayılır. Çox keçmədi ki, Böyük qayıdışın qısa bir zamanında Azərbaycan Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzaladı və çəkilişinə başlanıldı. "Bu yolun çox böyük əhəmiyyəti var" deyən Cənab Prezident bildirib ki, bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır.

## "DÜNYA TARİXİNDƏ BUNA OXŞAR VƏHŞİLİK BƏLKƏ DƏ OLMAMIŞDIR"

Bütün məscidlərimiz erməni vəhşiliyinin nəticəsidir ki, dağıdılmışdır. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib. Memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən XIX əsrin ikinci yarısında Şuşa şəhərində inşa edilmiş Gövhər ağa məscidi erməni terrorunun qurbanına çevrilib. Şuşa mağarası, Şuşanın qala divarları, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin Şuşadakı məqbərəsi də ermənilər tərəfindən tamamilə dağıdılmışdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərində olarkən dövlət başçısının bildirdiyi kimi, azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir: "Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam".Cənab Prezident tezliklə Vaqifin məqbərəsində bərpa işləri başlanacağını bildirmişdi: "Bu gün bərpa işlərinə start veriləcək". "Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə", deyə Cənab Prezident bildirib. Artıq bu layihəni Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edir.İşğaldan azad olunan məkanlarda məscidlərin bərpası ilə bağlı müvafiq göstərişlər verilib və ilkin araşdırmalar aparılır. Ermənilər Şuşada 30 il ərizində bütün tarixi abidələrimizə qarşı dağıdıcı mövqedə olublar. Şuşa şəhərinin tarixi mərkəzində yerləşən Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olan tarixi sarayı da dağıdıblar. "Şuşanı quran, Şuşanı salan Pənahəli xan özü üçün burada saray tikdirib. İndi görün, ermənilər nə günə salıblar bu sarayı. Tarixi abidə idi. Mənfur düşmən gəlib bizim torpağımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edib. Bütün beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər bunu. Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər".

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olundu və bu gün yeni bir yüksəliş dövrü başlayıb. Şuşa şəhərində, eləcə də işğaldan azad olunan bütün ərazilərdə olan tarixi-dini abidələrimiz bərpa olunacaq. Azərbaycanın mədəni paytaxtı və bütün Qafqazın incisi hesab olunan Şuşa şəhərində infrastruktur layihələr icra olunur. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Qısa zamanda həyata keçiriləcək yenidənqurma işləri nəticəsində Şuşa dünyanın ən gözəl şəhərləri siyahısında öz layiqli yerini tutacaqdır.

**Nəzakət ƏLƏDDİNQIZI**





# Samir Nuriyev: İşğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri dövlətimizin başçısının daim diqqət mərkəzindədir

**İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci ilin 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının videoformatda növbəti, 5-ci iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclası açan Prezident Administrasiyasının və Qərargahın rəhbəri Samir Nuriyev işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin dövlətimizin başçısının daim diqqət mərkəzində olduğunu, həyata keçiriləcək fəaliyyətlər ilə bağlı mühüm istiqamətlərin müəyyənləşdirildiyini qeyd edib.

Samir Nuriyev bildirib ki, Prezident İlham Əliyev tərəfindən də qeyd edildiyi kimi, işğaldan azad olunmuş torpaqlarımızda işğalçı Ermənistan tərəfindən şəhər və kəndlərimiz viran qoyulub, tarixi və dini abidələrimiz yerlə-yeksan edilib ki, bu da böyük miqyasda planlaşdırma və bərpa işlərinin həyata keçirilməsinin tələb edildiyini göstərir.

İclasda işğaldan azad edilmiş ərazilərdə həlledici əhəmiyyət kəsb edən minalardan təmizləmə, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı" Dövlət Proqramının hazırlanması istiqamətində görülən işlər, keçmiş məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıdışı, işğaldan azad olunmuş ərazilərdə enerji təminatı və xüsusilə də "Yaşıl enerji" məsələləri, şəhərsalma və nəqliyyat-rabitə infrastrukturunun qurulması, ADA Universiteti tərəfindən aparılan "Azərbaycanın postkonflikt ərazilərinə repatriasiyanın proqnozlaşdırılması və effektiv təşkili üzrə təkliflərin hazırlanması" tədqiqat işi çərçivəsində görülən işlər və keçirilmiş sorğuların nəticələri üzrə məruzələr dinlənilib və müvafiq tapşırıqlar verilib.

İclasda dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq işlərin sürət və keyfiyyətin vəhdəti nəzərə alınmaqla aparılmasının vacibliyi vurğulanıb.

# Hulusi Kılıç: Ermənilərin müharibə cinayətlərini araşdıracaq komissiya tarixi missiya həyata keçirəcək



Ermənilərin müharibə cinayətlərinin araşdırılması məqsədilə Türkiyədə beynəlxalq komissiyasının təsis edilməsi mühüm əhəmiyyət daşıyır. Komissiyasının missiyası ermənilərin Azərbaycana qarşı törətdiyi bütün cinayətləri mərhələli şəkildə təhlil edərək, həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqdır.

Bu fikirləri AZƏRTAC-a videomüsahibəsində Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç ifadə edib.

Qırx dörd günlük Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının düşmən işğalından azad olunmasından sonra qarşıda duran mühüm vəzifələrdən birinin təcavüzkar tərəfin törətdiyi çoxistiqamətli cinayətlərin araşdırılması olduğunu diqqətə çatdıran səfir deyib ki, komissiyadakı qruplar 1991-1994-cü illərdə, 1994-cü ildən 2020-ci il sentyabrın 26-dək və 44 günlük müharibə dövründə ermənilər tərəfindən törədilən cinayətləri ayrı-ayrılıqda təhlil edəcəklər. Özünün də təmsil olunduğu komissiyanın tərkibində təcrübəli mütəxəssislərin yer aldığını bildirən səfir yeni qurumun qarşıya qoyulan vəzifələrin öhdəsindən uğurla gələcəyinə əminliyini ifadə edib.

# İordaniya agentliyi ulu öndər Heydər Əliyevə həsr olunmuş məqalə yayıb



**İordaniyanın "Nayrouz" informasiya agentliyi ulu öndər Heydər Əliyev haqqında "Azərbaycana həsr edilmiş ömür" sərlövhəli məqalə yayıb.**

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan xalqının ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyevin xilaskarlıq missiyasından, xalqı qarşısında misilsiz xidmətlərindən bəhs olunur. Yazıda Ulu Öndərin ötən əsrin 90-cı illərində xaosa sürüklənmiş və parçalanma təhlükəsi ilə qarşılaşmış Azərbaycanı qısa zamanda güclü iqtisadiyyatı, qüdrətli ordusu və beynəlxalq nüfuzu olan ölkəyə çevirdiyi vurğulanır. İordaniyalı oxucuların diqqətinə çatdırılır ki, 8 ölkənin və 41 şirkətin iştirakı ilə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın neft ehtiyatlarının istismarı və dünya bazarına çıxarılması istiqamətində atılmış müdrik addım idi. Məhz bu müqavilə sayəsində Azərbaycan xalqının rifahı getdikcə yaxşılaşıb.

Məqalənin sonunda qeyd olunur ki, Heydər Əliyevin müdrik siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycan Ordusunu dünyanın ən qüdrətli orduları sırasına çıxardı, yeni transmilli enerji və nəqliyyat layihələri həyata keçirdi. "Heydər Əliyevin əziz xatirəsi hər bir azərbaycanlının və Azərbaycanı sevənlərin qəlbində yaşayır. Bu gün hər bir azərbaycanlı onun müdrik siyasətinin bəhrəsini öz həyatında hiss edir, insanlar rifah və əmin-amanlıq şəraitində yaşayırlar. Dahi Liderin siyasi kursu Azərbaycanın işıqlı gələcəyinin təminatıdır", - deyə məqalədə vurğulanır.

# YAP Gənclər Birliyi görüş keçirib







**Mayın 6-da Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi "İşğaldan azad olunmuş ərazilərdə vəziyyətin bərpasında gənclərin rolu" mövzusunda görüş keçirib. SİA-nın verdiyi məlumata görə, görüşdə Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya Komitəsinin sədri Sadiq Qurbanov iştirak edib.**

Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri Bəxtiyar İslamov tədbiri giriş nitqi ilə açaraq, belə görüşlərin əsas məqsədinin YAP Gənclər Birliyi üzvlərinin bilik və təcrübələrinin artırılması olduğunu vurğulayıb. Bəxtiyar İslamov qeyd edib ki, 44 günlük Vətən müharibəsində qazanılan qələbədən sonra işğaldan azad edilmiş torpaqların bərpası, o cümlədən ekoloji vəziyyətin yaxşılaşdırılması əsas vəzifələrdən biridir. O qeyd edib ki, "İşğaldan azad olunmuş ərazilərdə vəziyyətin bərpasında gənclərin rolu" mövzusunda keçirilən görüş gənclər üçün olduqca faydalı olacaq.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya Komitəsinin sədri Sadiq Qurbanov əvvəlcə Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib. Bildirib ki, Ulu öndər Heydər Əliyev hər zaman gənclərə yüksək diqqət, qayğı göstərib və həmin siyasi kurs ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Ulu Öndərin həyat fəlsəfəsi onun müstəqil dövlətçilik və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliğ olunması və hərtərəfli inkişaf etdirilməsi Azərbaycanımızın işıqlı gələcəyinin əsas prioritetlərindəndir. Ulu öndər Heydər Əliyev müasir dövlətimizin ideoloji-siyasi əsaslarını milli-mənəvi dəyərlər əsasında yaradaraq, onu real həyatda gerçəkləşdirib. Böyük rəhbərin dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi qətiyyət və iradə sonsuz Vətən sevgisinin parlaq nümunəsidir".

Sadiq Qurbanov qeyd edib ki, ərazilərimizin işğaldan azad olunmasında və hazırkı bərpa-yenidənqurma prosesində gənclərin yaradıcı düşüncələrinə, kreativ ideyalarına geniş ehtiyac duyulur: "Qarabağın bərpasında cəmiyyətin hərəkətverici qüvvəsi kimi gənclərin üzərinə vacib vəzifələr düşür. Qarabağa böyük qayıdış prosesində gənclərin rolu isə xüsusi önəm kəsb edir. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev işğaldan azad olunan əraziləri "yaşıl zona" elan edib. Orada "ağıllı kənd", "ağıllı şəhər" layihələrinin icrasına başlanılıb. Bu istiqamətdə gənclərin üzərinə böyük vəzifələr düşür". Daha sonra komitə sədri gənclərin suallarını cavablandırıb. Görüş diskussiya şəraitində davam edib.

***Ceyhun Rasimoğlu***



# Xalqa bəxş edilən ömür

**Ulu Öndər Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sisteminin formalaşmasına nail olunub**

Müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin inkişafı, məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi Şəxsiyyətin ideyaları Azərbaycan dövlətinin və xalqının qarşısında yeni-yeni üfüqlər açıb. Bu gün müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın qazandığı böyük uğurlar, məhz Ulu Öndər Heydər Əliyev dühasının bəhrəsidir. Ölkə həyatının bütün sahələrində nail olunan uğurlar Böyük Siyasi Xadim Heydər Əliyevin adı. Ümummilli Lider Heydər Əliyevin qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunub, dövlətçiliyimiz məhv olmaq təhlükəsindən xilas edilib.Düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirən, bugünkü uğurlarımız üçün möhkəm baza yaradan Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının tarixində böyük rolu vardır. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb. Onun ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir.

Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxarıb. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən, Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanılıb. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq olub. Kənd təsərrüfatının və sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində və əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edilib. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçübbiçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başlanıldı. Böyük Siyasətçi iqtisadiyyat, o cümlədən, kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist Partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək yolunda qətiyyətli yorulmadan çalışırdı. Qısa bir aman məsafəsində bütövlükdə, respublika ərazisində yüzlərlə zavod, fabrik və istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi.

## ÖLKƏMİZ DEMOKRATİYA, HÜQUQİ DÖVLƏT QURUCULUĞU YOLU İLƏ İRƏLİLƏDİ, XALQ-İQTİDAR BİRLİYİ YARANDI

1990-cı illərin əvvəlləri Azərbaycan dövrünün ağır günlərini yaşayırdı. Bir tərəfdən, separatçı qüvvələr və onların himayədarları ölkəmizi parçalayır, digər tərəfdən, iqtisadiyyatımız tamamilə dağılmışdır. Şəhər və kəndlərimiz bir-birinin ardınca işğal edilirdi. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan və birbirini əvəz edən səriştəsiz siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırmışdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. İqtisadiyyatımız böhranlı vəziyyətə gəlib çatmış, işsizlik, demək olar ki, kütləvi hal almışdı. Bunun nəticəsi olaraq əhalinin yaşayış səviyyəsi minimum səviyyəyə çatmışdı. Ölkənin ictimaisiyasi həyatında anarxiya, xaos hökm sürürdü. 15 İyun 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəni düçar olduğu vəziyyətdən çıxardı. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı.

Ulu Öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Belə ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Azərbaycan demokratik-hüquqi və dünyəvi dövlət kimi, ilk dəfə olaraq, insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçdi. Dahi Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali Sənəd müstəqil Azərbaycan Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı. Milli neft strategiyasının əsası qoyuldu. “Əsrin müqaviləsi” imzalandı. Neft strategiyasının beynəlxalq layihələrin və iqtisadi proqramların həllinə doğru istiqamətləndirilməsi ölkəmizdə bu tükənməz sərvətdən əldə olunan gəlirin qat-qat artırılmasına səbəb oldu.

## AZƏRBAYCAN XALQININ HƏMRƏYLİYİ, XALQ-İQTİDAR BİRLİYİ UĞURLARI ŞƏRTLƏNDİRİR

Azərbaycanda bu gün müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Onun siyasi xadim olaraq yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Azərbaycan durmadan yüksəlir, inkişaf edir və uğurlar qazanır. Prezident İlham Əliyev imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə, obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini və insanların rifahının yüksəlməsini təmin edib. 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Əgər Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı olmasa idi, əlbəttə ki, bu günün Azərbaycan reallıqlarından belə söhbət açıla bilməzdi. Bu gün müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər keçirilir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Azərbaycan ordusunun döyüş taktikası dünya ölkələrində öyrənilir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu döyüş meydanında ermənıyə dərs verdi. Azərbaycan 44 günlük Vətən müharibəsində neçə illərə bərabər bir yol getdi, döyüş əməliyyatı apardı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə qalib dövlət oldu. Azərbaycan xalqının həmrəyliyi, xalq-iqtidar birliyi uğurları şərtləndirən amil olduğundan ölkəmizi daha da böyük nailiyyətlər gözləyir.

***ZÜMRÜD BAYRAMOVA***

# Azərbaycan-Gürcüstan - möhkəm təməl üzərində qurulan dostluq

## İlham Əliyev: “Bizim birgə layihələrimiz regionun siyasi, iqtisadi, nəqliyyat və energetika xəritəsini dəyişib”

Sevindirici haldır ki, bu gün Azərbaycan qalib ölkə kimi dünya dövlətləri tərəfindən qəbul edilməklə yanaşı, həmçinin qonşu dövlətlərlə monolit birliyə malikdir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplomatik siyasətinin reallığıdır. Məhz İkinci Vətən müharibəsinin 44 gün ərzində 30 il işğalçı Ermənistandan azad olunan torpaqlarımız müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın dövlət başçısına olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi, Türkiyə kimi güclü qardaş dövlətin Azərbaycanın yanında olması və onun atdığı istənilən addımı müdafiə etməsi, həmçinin dost Pakistan dövlətinin ölkəmizə kömək etməyə hazır olduğunu bəyan etməsi, həmçinin qonşu dövlətlər - Rusiya, İran və Gürcüstanın və digər tərəfdaş dövlətlərin haqq işimizi müdafiə etməsi, həmçinin, bir çox dövlətlər, beynəlxalq təşkilatlar Ali Baş Komandanımız, Prezident İlham Əliyevin son 18 illik Prezidentlik fəaliyyəti dövründə həyata keçirilən xarici siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Və bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. Azərbaycanın mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməklə bu sahədə geniş təcrübəyə malik bir dövlətdir.

Elə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının mayın 5-də ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qəbulu zamanı iki qonşu dövlətlər arasında dostluq əlaqələrinin uzun tarixə əsaslandığını deyib.



### “Azərbaycan və gürcü xalqları arasında münasibətlər uzun tarixə əsaslanır, əsrlər boyu davam edən yaxşı qonşuluq və dostluq tarixinə əsaslanır”

Prezidenti İlham Əliyev ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qəbul edərkən söyləyib ki, iki qonşu ölkələr arasında münasibətlər uzun tarixə əsaslanır: “Azərbaycan və gürcü xalqları arasında münasibətlər uzun tarixə əsaslanır, əsrlər boyu davam edən yaxşı qonşuluq və dostluq tarixinə əsaslanır. Hesab edirəm ki, bu, böyük dinamikanı nümayiş etdirən və faktiki olaraq bir çox sahələri əhatə edən cari münasibətlərimizin inkişafı üçün çox yaxşı zəmindir”. İki ölkənin birgə enerji və nəqliyyat layihələrini dəyərləndirən dövlətimizin başçısı deyib: “Bu layihələr regionun siyasi, iqtisadi, nəqliyyat və energetika xəritəsini dəyişmişdir. Ölkələrimiz arasında güclü tərəfdaşlıq olmasaydı, bu layihələrin icrası mümkün olmazdı”,-deyən Azərbaycan Prezidenti onu da vurğulayıb ki, Cənubi Qafqaz regionunda yox, daha geniş Avrasiya regionunda ümumi inkişaf, sabitlik, proqnozlaşdırma, əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb edir: “Ötən ilin sonuncu günü Cənub Qaz Dəhlizi layihəsinin icrasının sonuncu günü idi. Bu layihə təkcə Cənubi Qafqaz regionunda yox, daha geniş Avrasiya regionunda ümumi inkişaf, sabitlik, proqnozlaşdırma, əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb edir. Bir daha qeyd edirəm, bizim əməkdaşlığımız olmasaydı, bu, mümkün olmazdı. Buna görə, bu vacib layihənin icrasına davamlı dəstək göstərdiyinə görə Gürcüstan hökumətinə dərindən minnətdaram. Bizim birlikdə start verdiyimiz bütün digər təşəbbüslərin də yaxşı uğur hekayəsi var. Əminəm ki, gələcəkdə də belə olacaq”.

### “Azərbaycan Gürcüstan iqtisadiyyatında ən böyük investorlardan biri olmağa davam edir”

“Mən indicə bəzi məlumatlara baxdım və gördüm ki, Azərbaycan Gürcüstan iqtisadiyyatında ən böyük investorlardan biri olmağa davam edir. Bu da, həmçinin çox müsbət və əlverişli investisiya mühitinin yaradılmasında sizin hökumətinizin həyata keçirdiyi islahatların yaxşı göstəricisidir”,-deyən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan şirkətinin Gürcüstanda çalışmaq istədiyini söyləyib: “Bilirəm ki, daha da çox Azərbaycan şirkəti sizin ölkənizdə çalışmaq istəyir və əminəm ki, bu, baş verəcək. Bu gün biz, əlbəttə ki, nail olduqlarımızı nəzərdən keçirəcəyik və gələcək addımlarımızı planlaşdıracağıq”.

Göründüyü kimi, iki ölkələr arasında dostluq və əməkdaşlığın gücləndirilməsində ən əhəmiyyətli amil xalq diplomatiyası, iki qardaş xalq arasında əsrlərcə davam edən birgə yaşama və mədəni mübadilə ənənəsidir.

Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daxili və xarici siyasətində daha böyük uğurlar qazanılması günümüzün reallığıdır. Bir sözlə, bütün bunlar bir daha təsdiqləyir ki, möhkəm təməl üzərində qurulan Azərbaycan-Gürcüstan dostluğu sarsılmazdır.

***RƏFİQƏ KAMALQIZI***

# “Ramazan bayramı günlərində əlavə məhdudiyyətlər tətbiq olunmayacaq”

Ölkəmizə gətirilən və tətbiq olunan COVID-19 əleyhinə bütün vaksinlər təhlükəsiz və effektivdir. Azərbaycanda iki dozanı almış vətəndaşlar arasında yoluxma sayları çox azdır. Yoluxanlar da xəstəliyin ağır formasından tam qorunurlar.




AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın dünən keçirilən brifinqində səhiyyə nazirinin birinci müavini Teymur Musayev deyib.

“Vaksinasiya olunmaq heç də digər qorunma vasitələrindən imtina etmək mənası daşımır. Hazırda maska taxılması, məsafə saxlanılması və digər gigiyenik prosedurlara əməl olunması məcburi və mütləqdir”, - deyə T.Musayev bildirib. O, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, qarşıdan gələn Ramazan bayramı günlərində yalnız ictimai nəqliyyatın fəaliyyətinin dayandırılacağını, əlavə məhdudiyyətlərin tətbiq olunmayacağını da diqqətə çatdırıb.

T.Musayev daha sonra bildirib ki, vaksinlər müxtəlif cür hazırlanır. Azərbaycanda koronavirusa qarşı ilk tətbiq olunan Çinin “Sinovac” şirkətinin vaksinidir. Bu, inaktivləşdirilmiş vaksindir. Artıq ölkəmizə “Vaxzevria” və “Sputnik V” vaksinləri də gətirilib və onların da tətbiqinə başlanılır. Ölkəmizdə tətbiq olunan bütün vaksinlər təhlükəsizdir və səmərəlidir. İndiyədək 600 min nəfərə yaxın vətəndaş ikinci dozanı qəbul edib. İki doza vurulanlar arasında yoluxma sayı çox aşağı səviyyədədir. Yoluxanlar isə xəstəliyi ağır formada keçirməkdən tam qorunurlar.

“Bu məlumatlar mayın 10-dan etibarən Azərbaycanın bütün ərazisində 18 yaşına çatmış vətəndaşların vaksinasiya kampaniyasında iştirak etməsinə əsas verir. Bu, böyük bir imkandır və bu imkan peyvəndlərin kifayət qədər olmasına əsaslanır. Digər bir məsələ ondan ibarətdir ki, könüllük prinsipi qorunaraq və eyni zamanda, vətəndaşlıq məsuliyyəti hiss edərək dünyanın qabaqcıl ölkələrində olduğu kimi bu prosesə kütləvi surətdə qoşulmaqla qısa müddətdə normal həyata qayıtmaq imkanı var. Bu imkanı əldən vermək olmaz və Səhiyyə Nazirliyinin rəsmisi kimi 18 yaşı tamam olan hər bir vətəndaşı həmin kampaniyaya qoşulmağa çağırıram. Nəinki öz sağlamlığı və həyatı, həm də doğmalarının, əzizlərinin həyatını düşünərək bu mühüm kampaniyaya qoşulmaqla ölkəmizin, cəmiyyətimizin normal həyata dönüşünü təmin etmək olar”,- deyə T.Musayev bildirib.

# Moskvalı veteranlar Qarabağda faşist Njdenin heykəlini sökməyə çağırırlar

Dolqoprudnensk (Moskva vilayəti) Müharibə, əmək, silahlı qüvvələr və hüquq-mühafizə orqanları veteranlarının ictimai təşkilatı federal hakimiyyət orqanlarına ərizə ilə müraciət edərək faşist kollaborant Njdenin Qarabağdakı heykəlini sökməyə çağırıb.



AZƏRTAC xəbər verir ki, Qarabağda Rusiya sülhməramlılarının nəzarətində olan zonada faşistlərin əlaltısı Njdeyə heykəl qoyulması Moskva vilayəti veteranlarını hiddətləndirib.

Veteranlar qeyd edirlər ki, Qələbə günü keçmiş SSRİ-nin bütün xalqlarını birləşdirən bayramdır, lakin təəssüf ki, postsovet məkanındakı bəzi ölkələrdə, o cümlədən Ermənistanda nasistlərin əlaltılarının qəhrəmanlaşdırmağa cəhd göstərirlər. Veteranların müraciətində qeyd edilir ki, İkinci Dünya müharibəsi dövründə Njde qızıl ordu sıralarından əsir düşmüş erməni əsgərlərindən ibarət “Erməni legionu” formalaşdırıb. Vermaxt sıralarında döyüşməyə başlayan bu legion Polşa və Ukraynada minlərlə dinc sakinə qarşı cinayətlər törədib, Qərbi Krımda iyirmi mindən çox dinc sakini qətlə yetirib.

Veteranlar təşkilatı faşizm üzərində Qələbənin keçmiş SSRİ-nin bütün xalqlarını birləşdirən bir hadisə kimi böyük əhəmiyyət kəsb etdiyini vurğulayaraq xəbərdarlıq edir ki, Rusiya sülhməramlı kontingentinin nəzarətində olan ərazidə belə bir heykəlin olması Avrasiya məkanında insanları birləşdirən azsaylı dəyərlərdən birini hörmətdən salır. Veteranlar əmindirlər ki, bu həm də faşizmi qəhrəmanlaşdırmaq cəhdlərinə qarşı prinsipial mübariz kimi Rusiyanın nüfuzunu aşağı salır. Müvafiq müraciət Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinə və Müdafiə Nazirliyinə göndərilib.

FAKT+FAKTUAL

# Blinken öz tvitində ermənilərə hansı eyhamı vurub?

***Birinci Qarabağ müharibəsində əsir düşmüş 4000 nəfər hərbi və mülki əsirlər barədə hələ də heç bir məlumat yoxdur və Azərbaycanın dəfələrlə (!) etdiyi müraciətləri də cavabsız qalıb***

Məlum olduğu kimi, ABŞ-ın dövlət katibi Entoni Blinken özünün tvitter səhifəsində paylaşdığı ifadəsində əsirlərin azadlığa buraxılması məsələsi ilə bağlı fikir bildirib. SİA həmin fikirləri araşdıraraq qənaətə gəlib ki, əslində, bir sıra Avropa təşkilatlarından fərqli olaraq Bayden administrasiyasının fikirləri diqqət çəkir. Blinkenin tivtində ən maraqlı ifadə isə “POWs” - yəni hərbi əsirlər deyil, “detaines”-saxlanılanlardır.

ABŞ-ın dövlət katibi burada faktiki olaraq düzgün termin seçib - saxlanılanlar. Belə ki, Azərbaycan tərəfi üçtərəfli bəyanatda əldə olunmuş razılığa əsasən, bütün hərbi əsirləri Ermənistana təhvil verib. Əslində, Blinkenin belə bir fikir bildirməsi alqışlana bilər, çünki Ermənistanın hələ də “hərbi əsir” iddiaları rəsmi şəkildə rədd olunur.

### Azərbaycanda hərbi əsir yoxdur və bu, Ermənistana tərəf edilən çağırışdır

Baydenin heç bir hüquqi məna kəsb etməyən “erməni soyqırımı” məsələsini fikir olaraq bəyan etməsi ilə müqayisədə erməni tərəfinin vaxtından əvvəl sevinməsi kimi, Blinkenin bu fikirləri də onları əlbəttə ki, kifayət qədər pəjmürdə edib.




Daha bir mühüm məqama diqqət yetirək. Blinken hər iki tərəfi saxlanılanların və əsirlərin geri qaytarmaları üçün çağırış edib. Bəs buradan hansı nəticələri çıxarmaq olar? Bu ifadələrdə də kiçik diqqət ayırsaq görərik ki, yuxarıda da qeyd olunduğu kimi, Azərbaycanda hərbi əsir yoxdur və bu, Ermənistan tərəfinə edilən çağırışdır. Çünki birinci Qarabağ müharibəsində əsir düşmüş 4000 nəfər hərbi və mülki əsirlər barədə hələ də heç bir məlumat yoxdur və Azərbaycanın dəfələrlə (!) etdiyi müraciətləri də cavabsız qalıb. Məhz bu baxımdan, Entoni Blinkenin “bütün saxlanılanların və əsirlərin” geri qaytarılması fikrinin, əslində, Ermənistan qarşısında qoyduğu tələb olaraq da qiymətləndirmək olar. Necə deyərlər, istəyəndə doğru, ədalətli fikirlər də səsləndirməyi bacarırlar. Təki, belə də olsun...

***Rövşən RƏSULOV***

# Nizami Gəncəvi ədəbi irsi: Heydər Əliyevdən - İlham Əliyevə

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi xarakterizə edən xüsusiyyətlər sırasında mükəmməl dövlətçilik idealı və səriştəsi, böyük siyasi uzaqgörənlik, xalqa və vətənə dərindən bağlılıq, heyrətamiz dərəcədə yaddaş, geniş tarixi dünyagörüşü, möhkəm iradə və qətiyyət, tarixi əhəmiyyətə malik qərarlar qəbul etmək və həmin qərarların yüksək səviyyədə icrasını təmin etmək kimi dünya liderlərinə xas olan keyfiyyətlərlə yanaşı, həm də bu mütəfəkkir dövlət xadiminin ədəbiyyat və incəsənətə dərindən bələd olması və həmin faktordan yerli-yerində bacarıqla istifadə etməsi də xüsusi yer tutur. Obrazlı şəkildə belə demək olar ki, dünya liderləri arasında Heydər Əliyev qədər ədəbiyyat və incəsənətə dərindən bələd olan, bu amildən dövlət idarəçiliyinin və siyasi-ideoloji proseslərdə yaradıcı şəkildə istifadə etməyi bacaran dövlət xadimi göstərmək çətindir.**



*İsa HƏBİBBƏYLİ*
*AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik*

Heydər Əliyev dünyada geniş və sistemli ədəbiyyat biliyinə malik olan nadir dövlət xadimidir. Ulu öndərin siyasi dünyagörüşünün formalaşmasında da ədəbiyyat faktoru mühüm yer tutmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin aşağıdakı fikirləri onun taleyində və dünya görüşündə ədəbiyyat amilinin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini əyani surətdə nümayiş etdirir: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm.... Mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur".

Ulu öndər Heydər Əliyev geniş mənada dünya ədəbiyyatı və mədəniyyətinə dərindən bələd olmuş, dünya ədəbiyyatı klassikləri haqqında orijinal mühakimələr yürütmüş, onlara obyektiv elmi-siyasi qiymət verməyi bacarmışdır. Məruzələrindən və çıxışlarından öyrənirik ki, o, dünyanın demək olar ki, əksər xalqlarının ədəbiyyatından tanınmış ədəbiyyat xadimlərinin irsi ilə yaxından tanış olmuşdur. Müxtəli vaxtlarda dünya ədəbiyyatı klassiklərindən Dante, Şekspir, Puşkin, Balzak, Lev Tolstoy, Dostoyevski, Maksim Qorki və başqa bədii dühaların əsərlərindən məqamına görə gətirdiyi sitatlar Heydər Əliyevin ədəbiyyatı nə qədər dərindən mütalİə etdiyini və ondan hansı səviyyədə yerli-yerində istifadə etmək bacarığını nümayiş etdirir. Azərbaycanda 1975-ci ildə oktyabr ayında keçirilmiş sovet ədəbiyyatı günlərindəki tarixi nitqində ayrı-ayrı müttəfiq respublikaların ədəbiyyatlarının ən tanınmış ədəbi şəxsiyyətlərinin adlarını çəkməsi də Ulu öndərin ədəbiyyata dərindən bələd olmasının ən bariz təzahürüdür: "Taras Şevçenkonun və Şota Rustavelinin, Nizaminin və Yanka Kupalanın, Əlişir Nəvainin, Rudəkinin və Abayın, Məhdimqulunun və Yanis Raynisin, Dmitri Kantemirin və Toktoqul Satılqanovun, Kristofonas Donklaytusin və Eduard Viddesnin, ...Süleyman Stalskinin, Dmitri Qulianın və başqa sənətkarların təravətini itirməyən əsərləri dünyanın və həqiqətin ... dərk dühasına xidmət edirdi".

Heydər Əliyev Azərbaycan ədəbiyyatına həyat, müdriklik və mübarizə məktəbi kimi baxmış ədəbiyyat və incəsənət əsərlərimizdə xalq həyatının bütün dərinliklərinə və genişliyinə qədər əks olunmasına xüsusi diqqət yetirməyi zəruri saymışdır. Dahi şəxsiyyət bu fikirdə idi ki, "Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini əbədiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır".

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan ədəbiyyatı klassiklərinin: Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Üzeyir Hacıbəyov, Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, Nəriman Nərimanov, Süleyman Rəhimov, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk və başqalarının xidmətlərini yüksək qiymətləndirmiş, onların ölkəmizdə və dünyada tanıdılması sahəsində dövlət səviyyəsində böyük tədbirlər həyata keçirmişdir.

Ulu öndər Heydər Əliyevin ədəbiyyat siyasətində böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyatı və yaradıcılığının tədqiq və təbliğ olunması, dünya miqyasında tanıdılması məsələləri geniş yer tutmuşdur. Əvvəla, Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində Nizami Gəncəvinin adının, ədəbi irsinin, ideallarının tədqiqi və təbliği işini diqqət mərkəzində saxlamışdır. O, Azərbaycana rəhbərliyinin hər iki dövründə və Siyasi Büronun üzvü kimi SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini vəzifəsində çalışarkən Nizami Gəncəvinin həyatı və yaradıcılığının dəyərləndirilməsi və təbliğ olunması məsələləri ilə ardıcıl şəkildə məşğul olmuşdur.

Belə ki, Azərbaycan Respublikasına birinci rəhbərliyi dövründə (1969-1982) respublika rəhbərinin 6 yanvar 1979-cu il tarixdə "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" dövlət səviyyəsində xüsusi bir qərarı imzalaması dahi sənətkarın zəngin yaradıcılığının ölkədə və dünyada tanıdılmasında və irsinin sistemli şəkildə tədqiq edilməsində mühüm rol oynamışdır. Bundan başqa, 1981-ci ildə Nizami Gəncəvinin anadan olmasının 840 illik yubileyinin geniş miqyasda və yüksək səviyyədə təntənə ilə qeyd olunması keçmiş Sovetlər İttifaqına görkəmli ədəbi şəxsiyyətlərin yubileylərinin keçirilməsi üçün müəyyən edilmiş qaydaların sədlərini aşmış, ədəbiyyatın inkişafında Nizami Gəncəvi kimi böyük xidmətləri olmuş dahi sənətkarlara fərqli yanaşma ənənəsinin əsasını qoymuşdur. Məlum olduğu kimi, Nizami Gəncəviyə qədər SSRİ miqyasında böyük sənətkarların yalnız yuvarlaq rəqəmlərlə ifadə olunan yubileylərinin keçirilməsi ənənəsi mövcud idi. Sovetlər İttifaqında görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə keçirilmiş Nizami Gəncəvinin 840 illik yubileyi yuvarlaq olmayan rəqəmlərlə ifadə olunan birinci və axırıncı rəsmi yubiley tədbiri olmuşdur. O zaman Sovetlər İttifaqı miqyasında və onun hüdudlarından kənarda da görkəmli dövlət xadimi kimi qəbul olunan Heydər Əliyev özünün xüsusi nüfuzundan və dəmir məntiqindən istifadə edərək Nizami Gəncəvinin 840 illik yubileyini keçirməyə nail ola bilmişdir. Sonralar məlum olmuşdur ki, Heydər Əliyeva sovet dövlətinin yubiley keçirmək ənənəsini qıran bu addımın qarşısını almaq istəyən yuxarı rəsmi təbəqələrin yaratdıqları baryerləri də ağıllı yanaşmalar ilə aşıb keçmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev 12 ildən sonra, 1993-cü ildə Nizami Gəncəvinin anadan olmasının 840 illik yubileyinin keçirilməsinin ibrətamiz tarixçəsini aşağıdakı kimi ictimaiyyətin diqqətinə çatdırmışdır: "Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə bizə çox yerdə irad tutdular ki, 840 il yuvarlaq tarix deyil. Ancaq bir sübut etdik ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər".

Görkəmli dövlət xadimi Heydər Əliyev dahi Azərbaycan şairi Nizami Gəncəvinin 840 illik yubileyinin Azərbaycan miqyasında böyük təntənə ilə qeyd olunmasını təmin etməklə bərabər, Sovetlər İttifaqının paytaxtı Moskvada, ikinci mərkəzi sayılan Peterburqda, hətta Yuqoslaviyada da keçirilməsinə nail olmuşdur. Beləliklə, ilk və son dəfə SSRİ-nin sabit yubiley keçirmək ənənəsi dağıdılmış, Nizami Gəncəvi ilə bağlı Azərbaycanda, Sovetlər İttifaqında və Avropa ölkələrində növbədənkənar şəkildə əhəmiyyətli addımlar atılmışdır. Qeyd etmək lazımdır ki, Heydər Əliyev sovet rəhbərliyində də yuvarlaq, ənənəvi olmayan qeyri-adi dövlətçilik istedadına malik nadir dövlət xadimi idi. Bu, dahi siyasi şəxsiyyətin həyat və mübarizə yollarında bu cür hamar standart olmayan tarixlər, məsuliyyətli sınaqlar az olmamışdır. Heydər Əliyev böyük addımlarla irəliləyən Azərbaycanın timsalında dövlətin və cəmiyyətin yuvarlaq olmayan, özünəməxsus qeyri-standart üsullar və vasitələrlə irəli aparılmasının mümkünlüyünü isbat etmiş qüdrətli dövlət xadimidir.

Ulu öndər Heydər Əliyev dövlətçilik fəaliyyətinin Siyasi Büro - SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini mərhələsində də Sovetlər İttifaqının taleyüklü problemləri ilə məşğul olmasına baxmayaraq, önəm verdiyi çoxcəhətli Azərbaycan məsələləri içərisində Nizami Gəncəvi mövzusu da xüsusi yer almışdır. O, SSRİ-nin əsas rəhbərlərindən biri kimi artıq daha aydın surətdə görmək imkanına malik idi ki, ayrı-ayrı görkəmli şair və yazıçılar, o cümlədən də Nizami Gəncəvi nə üçün keçmiş Sovetlər ittifaqında və rus onun təsir dairəsində olan digər dünya ölkəsində layiq olduqları yeri tuta bilmirlər. Ona bəlli olmuşdu ki, Nizami Gəncəvi "Xəmsə"sinin rus dilində mükəmməl tərcümələrinin və nəşrlərinin olmaması, xüsusən, dahi şairin ölməz əsərlərinin nəfis Moskva nəşrləri vasitəsilə Rusiyada və rusdilli beynəlxalq məkanda Çində, Şərqi Avropa ölkələrində yayılmaması onun dünya miqyasında layiq olduğu yeri tutmasına və haqq etdiyi şöhrəti qazanmasına mane olur. Ona görə də SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini, Siyasi Büronun üzvü Heydər Əliyevin dahi Azərbaycan şairi Nizami Gəncəvinin ədəbi irsinin Moskvada yüksək poliqrafik səviyyədə kitab halında nəşri məsələsi ilə xüsusi şəkildə məşğul olması bu böyük dühanın böyük Azərbaycan sevdasının və Nizami Gəncəvi irsinin dünya ədəbiyyatı miqyasına çıxarmaq arzusunun ifadəsi idi. Çox sonralar Ulu öndər artıq Kremldən istefa verərək Azərbaycana qayıtdıqdan sonra Moskvada yaşayıb-çalışdığı dövrdə dahi şairin əsərlərinin rus dilində nəşr olunması ilə əlaqədar baş vermiş hadisələri aşağıdakı kimi yada salmışdır: "Azərbaycanda 1948-ci ildən sonra dahi şairimizin əsərləri lazımi səviyyədə çap olunmamışdır. Nizami Gəncəvinin əsərlərinin Moskvada, rus dilində çap olunması barəsində qərar qəbul edilmişdi. Lakin sonra öyrəndik ki, "Xudojestvennaya literatura" nəşriyyatında bu əsərlər çap olunmamışdır. Böyük bir nailiyyət kimi yox, sadəcə olaraq xalqımıza xidmət kimi deyə bilərəm ki, Moskvada işlədiyim dövrdə Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əsərlərin rus dilində ayrı-ayrılıqda nəşr olunmasına nəzarət etdim... Nizaminin əsərlərini böyük çətinliklə Moskvada nəşr etdirdik. Sonra mən Bakıya gələrkən Nizami muzeyinə getdim və gördüm ki, şairin beş əsərinin hamısı orada nümayiş etdirilir".

Oxuculara məlumat üçün bildirmək istəyirik ki, görkəmli dövlət xadimi Heydər Əliyevin haqqında bəhs etdiyi Nizami Gəncəvinin əsərlərinin 5 cildlik nəşri böyük Azərbaycan şairinin Rusiyada çap olunmuş birinci çoxcildlik kitab idi. Müxtəlif vaxtlarda lirikası və poemaları ayrı-ayrılıqda və fərqli nəşriyyatlarda kitab halında çap olunsa da, Nizami Gəncəvinin əsərlərinin tam külliyyatı çoxcildlik nəşr səviyyəsində ilk dəfə Ulu öndərin haqqında söz açdığı 1985-1986-cı illərdə Moskvanın "Xudojestvennaya literatura" nəşriyyatında hər biri ayrı kitab kimi çap edilmiş kitablar dəsti olmuşdur. Aydınlıq üçün deyək ki, Nizami Gəncəvinin 800 illik yubileyi ərəfəsində, 1946-cı ildə şairin əsərləri "Beş poema" adı ilə akademik Y.Bertels və V.Qoltsevanın tərtibi, P.Antokolski, V.Derjavin, Y.Keyxaruzun tərcüməsində Moskvada Dövlət nəşriyyatında müəyyən ixtisarla 642 səhifəlik kitab halında çapdan olunmuşdur. Heydər Əliyevin nəzarəti ilə 1985-1986-cı illərdə çap olunan nəşrdə isə redaksiya heyətində Mirzə İbrahimov, Məmməd Cəfər Cəfərov və Rüstəm Əliyevin olduğu 5 kitabdan ibarət olan unikal kitablardan ibarətdir. Çap edildiyi vaxtdan 30 il keçməsinə baxmayaraq, indi də həmin çoxcildlik nəşr Nizami Gəncəvinin rus dilində çap olunmuş ən yaxşı külliyyatı olaraq qalır. Doğrudur, Heydər Əliyev Nizami Gəncəvinin əsərlərinin rus dilində daha mükəmməl tərcümələrinin olmasını arzu etmişdir ki, bu vacib işin və eyni zamanda böyük sənətkarın əsərlərinin ingilis dilində də tam külliyyatının hazırlanıb çap edilməsi indiki nəsillərin borcu və vəzifəsidir. Nizami Gəncəvini dünya ədəbiyyatında yerini və mövqeyini daha da möhkəmlətmək üçün onun ölməz əsərləninin ən azı ingilis və rus dillərində mükəmməl tərcümələrinin yüksək poliqrafik səviyyədə nəşr edilməsinə nail olunmasına ehtiyac vardır.

Ulu öndər Heydər Əliyev tərəfindən XX əsrin səksəninci illərində Moskvada rus dilində nəşr etdirdiyi "Xəmsə" indi də böyük Azərbaycan şairi Nizami Gəncəvini dünyaya təqdim edən ən mühüm nəşr olaraq qalmaqdadır.

*Ardı Səh. 7*

# Nizami Gəncəvi ədəbi irsi:
# Heydər Əliyevdən - İlham Əliyevə

Əvvəli Səh. 6

Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin məruzələri, nitqləri və çıxışlarında Nizami Gəncəvinin zəngin işindən yaradıcılıqla istifadə etməyin əsl nümunəsini göstərmişdir. Ulu öndərin hələ 1 noyabr 1969-cü ildə Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində dövlət rəhbəri kimi ana dilində etdiyi ilk rəsmi məruzəsində xalqımızın böyük elm və ədəbiyyat xadimləri sırasında "mütəfəkkir şair Nizami Gəncəvinin" də adını xüsusi olaraq çəkməsi müasir tarixi şəraitdə də bu böyük söz və fikir korifeyinin nümunəsində yeni nəsillərin hazırlanıb yetişdirilməsini diqqət mərkəzinə çəkməsi demək idi. Bundan başqa, Heydər Əliyev 16 avqust 1972-ci il tarixində Moskvada nəşr olunan "Literaturnaya qazeta" da çap etdirdiyi SSRİ-də və dünya ölkələrində böyük əks-səda doğurmuş "Qoy ədalət zəfər çalsın!" adlı müsahibəsində də Nizami Gəncəvi irsindən bir neçə istiqamətdə yaradıcı şəkildə istifadə etmişdir. İlk növbədə ulu öndər XX əsrin yetmişinci illərində Sovet cəmiyyətində ədalət məsələlərindən inamla danışmağının mahiyyətində məhz Azərbaycan xalqının bu sahədəki çoxəsrlik köklü ənənələrinə, o cümlədən Nizami Gəncəvinin ədalət konsepsiyasına istinad etdiyini nəzərə çarpdırmışdır. İkincisi, Ulu öndər ədalət məsələsinə münasibətdə məntiqi mənada sovet yazıçılarının Nizami Gəncəvi irsindən yenidən və yaradıcı şəkildə istifadə etmələrini əhəmiyyətli saymışdır. Üçüncü və ən əsası isə Heydər Əliyev sovet ideologiyasını faktiki olaraq ciddi şəkildə təftiş edən məşhur "Qoy ədalət zəfər çalsın!" müsahibəsini Nizami Gəncəvinin əsərlərindən gətirdiyi seçilmiş ibrətamiz şeir parçaları ilə tamamlamaqla hazırkı şəraitdə də sovet dövlətinin əsas ideoloqlarının bu zəngin irsdən öyrənib nəticə çıxarması zərurətinə diqqəti yönəltmişdir. Həqiqətin "Qoy ədalət zəfər çalsın!" müsahibəsində ictimai ədalət məsələlərini siyasi-ideoloji proseslərlə əlaqəli şəkildə təqdim etməklə Heydər Əliyev bu sahədə dövləti daha da irəli aparmaq üçün müdrik qərarlar qəbul etməsi baxımından Nizami Gəncəvi irsindən öyrənməyin faydalı və əhəmiyyətli olduğunu nəzərə çarpdırmışdır. Bu cəhətdən Heydər Əliyevin öz müsahibəsində Nizami Gəncəvidən nümunə gətirdiyi bədii parçalar ictimai quruluşun xarakterindən asılı olmayaraq bütün dövrlər və zamanlar üçün əhəmiyyətli və aktual ola biləcək aşağıdakı hikmətli misralardan ibarət idi:

Təmkinli ol, lovğalığı, sərvəti
At, yanıb tonqalda qoy külə dönsün!
Əgər istəyirsən ürəyin gülə,
Qoyma pis niyyətlər fikrinə gələ!
Nalayiq əməllər görsən harada,
Odlu nəfəsinlə yandır, məhv elə.

Görkəmli dövlət xadimi Heydər Əliyevin dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyatı və yaradıcılığı ilə bağlı olan təşəbbüsü ilə 6 yanvar 1979-cu ildə "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, tədqiqini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" dövlət səviyyəsində qəbul edilmiş mühüm tarixi əhəmiyyətə malik olan qərar qüdrətli söz ustadına dünya elm, ədəbiyyat və ictimai fikrini əsaslı dəyişməsində xüsusi rol oynamışdır. Hesab edirik ki, bu qərar Nizami Gəncəvinin həyatı və yaradıcılığının tədqiqi və təbliğ olunmasına, əsərlərinin tərcümə və nəşr edilməsinə dair böyük dövlət proqramıdır. Bu, tarixi qərarı dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin həyatı və yaradıcılığı haqqında Heydər Əliyev proqramı da adlandırmaq olar.

Məlum olduğu kimi, Nizami Gəncəvinin 1947-ci ildə keçirilmiş 800 illik yubileyindən keçən 32 il ərzində böyük mütəfəkkir sənətkarın həyatı və yaradıcılığının tədqiq edilib öyrənilməsi, əsərlərinin tərcümə və nəşr edilməsi sahəsində böyük boşluq yaranmışdır. Azərbaycan elmi və ictimai fikrində yaranmış həmin boşluqdan istifadə edən digər ölkələrdə Nizami Gəncəviyə sahib çıxmaq, onun doğum yeri və nəsil şəcərəsinin yanlış istiqamətlər yozulmasında təbliğat işi genişləndirilmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin "Azərbaycan böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında"kı qərarı ilk növbədə böyük sənətkarın Azərbaycan xalqına məxsus olmasının dövlət səviyyəsində bəyan edilməsi ilə Nizamiyə sahib çıxmaq arzusunda olanlara əsaslı bir cavab olmuşdur. İkincisi, Nizami Gəncəvi deklorasiyası şairin əsərlərinin fars dilindən yenidən, orijinala daha uyğun şəkildə sətri tərcümələrinin edilməsini məsul bir vəzifə kimi qoymuşdur. Bu vacib məsələnin uğurlu şəkildə yerinə yetirilməsi üçün ölkəmizin ən tanınmış şərqşünasları: Mübariz Əlizadə, Rüstəm Əliyev, Həmid Məmmədzadə, Xəlil Yusifov, Zümrüd Quluzadə, Vaqif Aslanov və Qəzənfər Əliyevin orijinaldan Azərbaycan dilinə etdikləri sətri tərcümələr həm Nizami Gəncəvi haqqında daha dəqiq və əsaslı araşdırmalar aparmaq istəyən tədqiqatçılar, həm də şairin əsərlərinin yenidən bədii tərcümələrinin hazırlaması baxımından böyük əhəmiyyətə malik olmuşdur. Məlumat üçün deyək ki, məlum dövlət qərarının işığında Nizami "Xəmsə"sinə daxil olan poemaların sətri tərcümələri kitab halında çap olunmuşdur. Həmin sətri tərcümələr əsasında xalq şairi Xəlil Rza Ulutürk tərəfindən Nizami Gəncəvinin "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "İsgəndərnamə" poemalarının yeni poetik tərcümələri meydana qoyulmuşdur.

Nizami Gəncəvinin ədəbi irsinin tədqiqi sahəsində də yeni mərhələ bu dövrdən etibarən formalaşmağa başlamışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 1981-ci ildə "Nizamişünaslıq" şöbəsinin yaradılması böyük sənətkarın həyatı və yaradıcılığının daha sistemli şəkildə öyrənilməsinə geniş meydan açmışdır. Görkəmli şərqşünas alim, filologiya elmləri doktoru, professor Rüstəm Əliyevin rəhbərlik etdiyi "Nizamişünaslıq" şöbəsi ölkə miqyasında Nizami tədqiqatlarının və tərcüməçilərinin əsas mərkəzinə çevrilmişdir. Nəticədə XX əsrin səksəninci illərində Azərbaycan Nizamişünaslığı özünün əsl inkişaf dövrünü yaşamışdır. Ölkəmizin tanınmış elm adamlarından Məmməd Cəfər Cəfərovun "Nizaminin fikir dünyası" (1982), Xəlil Yusifovun "Şərqdə intibah və Nizami Gəncəvi" (1982), Rüstəm Əliyevin "Nizami (Azərbaycan, rus və ingilis dillərində biblioqrafik məlumat (1983) və "Ölməz məhəbbət dastanı" (1984), Xəlil Hüseynovun "Nizaminin "Sirlər xəzinəsi" (1983), Çingiz Sasani "Nizaminin "Leyli və Məcnun" poeması (1985), Mehdi Kazımovun "Nizaminin "Yeddi gözəl" poeması və XIV-XV əsrlər farsdilli ədəbiyyatında nəzirə ənənəsi" (1987), Cahangir Qəhrəmanov və Kamil Allahyarovun "Nizami Gəncəvi əsərlərinin əlyazmaları dünya kitab xəzinələrində" (1987) kitabları, habelə, dövrün yeni nəsil nizamişünasları Azadə Rüstəmova və Nüşabə Araslının ciddi tədqiqatları Nizamişünaslıq elminin bu mərhələsinin qiymətli elmi töhfələridir. Göründüyü kimi, Heydər Əliyevin Nizami Gəncəvi haqqındakı qərarından sonra qısa bir müddətdə Azərbaycanı da nizamişünaslıq elmi hərəkat şəklini almışdır.

XX əsrin yetmiş-səksəninci illərində görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi, müdrik siyasətinin işığında Nizami Gəncəvinin adının əbədiləşdirilməsi istiqamətində də böyük işlər görülmüşdür. O zamanlar bolşeviklər tərəfindən Kirovabad adlandırılan şəhərdə Yeni Gəncə adlı mikrorayonun salınması bu şəhərin qədim adının unutdurulmaması və yenidən qaytarılması ideyasının gündəmə gətirilməsi baxımından zamanına görə kifayət qədər cəsarətli və uzaqgörən addım idi. Bakı metrosunda dayanacaqlarından birinə Nizami Gəncəvinin adının verilməsi və xalq rəssamı Mikayıl Abdullayevin rəsmləri əsasında Nizami ornamentləri ilə bəzədilməsi dahi şairin doğma xalqı ilə qaynayıb-qarışmasını təmin etmək üçün düşünülmüş mühüm hadisədir. Nəhayət, 1982-ci ildə "Nizami" filminin çəkilməsi (musiqisi Qara Qarayev, senari müəllifləri İsa Hüseynov və Eldar Quliyev, rejissoru Eldar Quliyev) və dünyada məşhur olan böyük müğənni Müslüm Maqomayevin baş rolda oynaması da Heydər Əliyev epoxasının Nizami proqramının möhürlərindən biridir. Beləliklə, Nizami Gəncəvinin həyatı və yaradıcılığının öyrənilməsi, əsərlərinin tərcümə və nəşr olunması, ideallarının təbliği baxımından ulu öndər Heydər Əliyev böyük bir dövlət proqramını hazırlayıb həyata keçirmişdir. Nizami Gəncəvini Sovelər İttifaqı miqyasında tanıtmaq və Azərbaycanda əsaslı şəkildə öyrədib təbliğ etmək, şairin adını əbədiləşdirmək kimi mühüm vəzifələrin uğurla həyata keçirilməsi Heydər Əliyev dövrünü Nizamişünaslığın xüsusi mərhələsi səviyyəsinə qaldırmışdır.

XX əsrdə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin həyatının və ədəbi irsinin öyrənilməsi və təbliği istiqamətində yeni vəzifələri meydana çıxarmışdır. Artıq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni tarixi mərhələdə Nizami Gəncəvinin dünyada Azərbaycan şairi kimi tanıdılması, həyat və sənət yolunun müstəqillik işığında yenidən və əsaslı şəkildə tədqiq və təbliğ olunması sahəsində genişmiqyaslı tədbirlər ardıcıl olaraq həyata keçirilməkdədir. Nizami Gəncəvinin tədqiqi və təbliğinin Heydər Əliyev epoxasındakı Sovetlər İttifaqı masştabı yeni dövrün reallıqlarına uyğun olaraq İlham Əliyev erasının beynəlxalq miqyası səviyyəsinə qaldırmışdır. Məhz Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsində Nizami Gəncəvi ilə əlaqədar yeni bir era formalaşmışdır. Nizami Gəncəvinin adı və ədəbi irsi ilə bağlı son on illiklərdə həyata keçirilmiş bir çox tədbirlər Azərbaycanı müstəqillik tarixinin əlamətdar hadisələrinə çevrilmişdir.

Azərbaycanda böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 870 illiyinin dövlət səviyyəsində qeyd edilməsi böyük sənətkara bəslənilən ümumxalq məhəbbətinin əsl təntənəsi olmuşdur. Nizami Gəncəvini dünyada Azərbaycan şairi və mütəfəkkiri kimi tanıtmaq məqsədilə xarici ölkələrdə dahi sənətkarın heykəllərinin ucaldılması sözün əsl mənasında böyük ədəbi-tarixi hadisədir. Rusiyanın Moskva və Sankt-Peterburq şəhərlərində, Çin Xalq Respublikasının paytaxtı Pekində, İtaliyanın başkəndi Romada Nizami Gəncəviyə qoyulmuş heykəllər onu və mənsub olduğu xalqı dünyaya təqdim edən əhəmiyyətli memarlıq abidələridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə Nizami Gəncəvi medalının təsis edilməsi və həmin medalın azərbaycanşünaslıq sahəsində mühüm araşdırmalar aparan, ölkəmizlə əlaqələrin möhkəmləndirilməsinə xidmət edən tanınmış şəxslərə verilməsi dahi şairi dünyada tanıtmaq üçün dövlət əhəmiyyətli addımdır.

Mühüm ictimai-siyasi və elmi-mədəni tədbirlərin həyata keçməsinə meydan açan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi isə dünyanın tanınmış dövlət xadimləri və elm adamları ilə birlikdə böyük sənətkarın adını, irsini tanıtmaq və ideallarını qlobal miqyasda təbliğ etmək üçün təsis edilmiş ideal platformadır. Böyük Britaniyanın Oksford Universitetində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətə başlaması ölkəmizin alimləri ilə yanaşı, tanınmış dünya şərqşünaslarının da araşdırma və təbliğat proseslərinə cəlb edilməsinə şərait yaradır. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Nizamişünaslıq şöbəsinin otuz ildən sonra yenidən bərpa edilməsi, AMEA-nın Gəncə Bölməsinin tərkibində Nizami Gəncəvi Elmi Mərkəzinin yaradılması və fəaliyyətlərinin təşkili Nizamişünaslıq tədqiqatlarının ölkəmizin dövlətçilik maraqları, habelə azərbaycançılıq ideyaları ilə üzvü surətdə əlaqədə tədqiq edilməsinə xidmət göstərir. Bütün bunlar sözün əsl mənasında Nizami Gəncəvi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı və fəaliyyəti ilə bağlı olan yeni mərhələnin tarixə çevrilmiş silinməz səhifələridir. Bunlar Prezident İlham Əliyevin rəhbərlik etdiyi və istiqamət verdiyi Nizami Gəncəvi Dövlət Proqramının müstəqillik dərsləri və əsərləridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqındakı 5 yanvar 2021-ci il tarixli Sərəncamı ölkəmizdə və dünyada Nizami Gəncəvinin tərcümeyi-halının və zəngin ədəbi irsinin tədqiqi və təbliği işini daha yüksək səviyyəyə qaldırmaq üçün geniş perspektivlər açır. Prezident İlham Əliyevin imzaladığı mühüm tarixi əhəmiyyətə malik olan dövlət Sərəncamında irəli sürüldüyü kimi "bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifələr açmış, ...xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş... ...qüdrətli söz və fikir ustadının daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi" tədqiq təbliğ edilməsi aid dövlət qurumlarının elm, təhsil, ədəbiyyat və mədəniyyət adamlarının qarşısına daha mühüm vəzifələr qoyur. Prezident Sərəncamının imzaladığı vaxtdan keçən müddət ərzində müxtəlif dövlət qurumlarının həyata keçirdikləri tədbirlər Nizami Gəncəvinin xalqımıza və dünyaya yenidən tanıtmağa xidmət göstərir. Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 2 cildlik "Nizami Gəncəvi ensiklopediyası"nın, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda dahi şairin ölməz "Xəmsə"sinin akademik nəşrinin hazırlanması istiqamətində başlanmış işlər Nizami Gəncəvi ili miqyasında gerçəkləşdiriləcək əhəmiyyətli elmi tədbirlərdir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun birgə hazırladıqları "Qafqaz Renessansı: Nizami Gəncəvi və Şota Rustaveli" elmi layihəsi Nizamişünaslığı müasir dövrün çağırışları ilə zənginləşdirən sanballı tədqiqat işidir.

Nizami Gəncəvinin nəsil şəcərəsi, Nizami Gəncəvi yaradıcılığında türkçülük və azərbaycançılıq, Nizami Gəncəvi və Azərbaycan Renessansı və sair kimi problemlər "Nizami Gəncəvi İli"nin elmi dövriyyəyə daxil etdiyi yeni mövzulardır. Azərbaycanın elm, ədəbiyyat və mədəniyyət xadimləri Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsini layiqli şəkildə təmin etmək üçün bütün qüvvə və bacarıqlarını sərf edəcəklər.

# “Tarixi Zəfərimiz Heydər Əliyev siyasətinin təntənəsidir”

*Əgər Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycan bəlkə də ancaq bir yarımmüstəmləkə kimi yaşaya bilərdi*

## Xalq xilaskarına üz tutdu

Bir neçə aydan sonra dahi şəxsiyyət Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövlət müstəqilliyinin yenidən bərpasının 30-cu ildönümünü qeyd edəcək. Qürurvericidir ki, müstəqilliyimizin 30 illiyini Qələbə qazanmış, Zəfər çalmış xalq kimi, dövlət kimi qeyd edəcəyik. 2020-ci ilin 8 noyabr tarixini salnaməsinə Zəfər Günü kimi yazan ölkəmiz bir daha sözün əsl mənasında müstəqil siyasət yürütdüyünü, heç kimin diktəsi ilə oturub durmadığını, milli maraqların hər şeydən öndə dayandığını dünyaya nümayiş etdirdi. Xalqımız dillərdə əzbər olan “Zəfərin mübarək, Azərbaycan!” çağırışından fərəh hissi keçirir, bu günü gec-tez yaşayacaqlarına şübhələrinin olmadığını bildirirlər. Çünki müstəqil Azərbaycanımız 1993-cü ildən elə bir uğurlu yola çıxıb ki, ancaq inkişaf, tərəqqi, problemlərin həlli, xalqın sabaha ümidlərinin böyüklüyü, Prezidentinə inamı və etimadı arxada qalan illərin əsas xarakteristikası olub.

Bu günümüzü düzgün dəyərləndirmək, Heydər Əliyev yolunun dövlətimizə, xalqımıza qazandırdığı uğurların miqyasının genişliyini dərk etmək üçün müstəqillik tariximizin ayrı-ayrı dövrlərinə nəzər salmağa böyük zərurət var. Azərbaycan xalqı müstəqilliyimizin ilk illərində böyük faciələrlə, çətinliklərlə üz-üzə qaldı. Həmin dövrdə ölkəmizə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətinin yoxluğu, öz şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmaları Azərbaycanı “olum, ya ölüm” dilemması qarşısında qoymuşdu. Digər tərəfdən də silahlı qüvvələrin torpaqlarımızın deyil, ayrı-ayrı dairələrin maraqlarının müdafiəsinə xidmət etməsi ərazilərimizin işğalına səbəb oldu. Ölkədə yaşanan xaos, anarxiya, özbaşınalıqlar, vətəndaş qarşıdurması, torpaqlarımızın itirilməsi xalqımızın sabaha ümidlərini itirdi, insanlar vəziyyətdən çıxmağın yollarını axtarmağa başladılar. Belə çətin günlərdə xalqımızın xilaskar kimi üz tutduğu yeganə ünvan ulu öndər Heydər Əliyev oldu. Ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərindən bəhs edərkən ilk olaraq göz önünə Onun xilaskarlıq missiyası gəlir.

## Bugünkü uğurlarımızın başlanğıcı

Dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörən, düşünülmüş və məqsədyönlü siyasətinin Azərbaycanımızın qarşısında açdığı imkanlardan, üfüqlərdən bəhs etmədən öncə onun ən böyük xidməti olaraq 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılmasını qeyd etməliyik. Çünki uğurlarımızın başlanğıcı kimi partiyanın yaranması qeyd edilməlidir. 1992-ci il oktyabrın 16-da xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi kimi dəyərləndirilən 91 nəfər ziyalının müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevə bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, milyonların partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı “Azərbaycan Sizin sözünüzü gözləyir” müraciəti dövlətçilik tariximizdə dönüş nöqtəsi oldu. “91-lər”in, 1992-ci ildə Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevi Azərbaycanda hakimiyyət uğrunda açıq və



fəal mübarizəyə səsləyən, onun hakimiyyətə qayıdışı üçün müraciətə imza atmış, Yeni Azərbaycan Partiyasının “qızıl fondu” elan olunmuş 91 nəfər tanınmış ziyalının Ümummilli Liderə ünvanladıqları müraciətdə dövrün reallıqlarının doğurduğu fəsadlar - respublikanın iqtisadi potensialının sürətlə dağılması, təbii sərvətlərimizin talan edilməsi, vəziyyətin ağırlığından, çıxılmazlığından, həyatın qeyri-sabitliyindən, gələcəyə ümidsizlikdən respublikanı yüzlərlə ziyalı - yüksək ixtisaslı kadrların tərk etməsi barədə məlumat verilir. Müraciətdə, həmçinin xalqımıza qarşı törədilən ən dəhşətli cinayətləri - 20 Yanvar, Xocalı, Şuşa, Laçın və digər faciələri törədənlərin cəzasız qalması xüsusi olaraq qeyd olunur və baş verən problemin həllinin güclü bir liderin iradəsinə bağlı olduğu vurğulanırdı. “91-lər” ölkəyə rəhbərlik edəcək həqiqi bir lideri Heydər Əliyevin simasında görərək belə bəyan edirdilər ki, indiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz.

91 nəfər ziyalı xalqımızın böyük əksəriyyətinin istəyini ifadə edərək dahi şəxsiyyətə müraciət etdi və Ümummilli Liderin “Yeni, müstəqil Azərbaycan uğrunda” cavabı həmin dövrün çətinliklərindən xilas yolunu açıqlamaqla yanaşı, bugünkü uğurlarımızın başlanğıcı oldu. “Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir” söyləyən ulu öndər Heydər Əliyev “Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərin həllində biganə qalmağa heç kəsin haqqı yoxdur” bildirərək bu inamı da ifadə etmişdir ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində yaradılması obyektiv zərurətdən irəli gələn Yeni Azərbaycan siyasi partiyası ölkənin ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər.

Bu istəklə Yeni Azərbaycan Partiyasının yaradılmasından bizləri 29 ilə yaxın zaman ayırır. Təsis konfransını 1992-ci il noyabrın 21-də respublikanın müxtəlif bölgələrindən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda keçirən Yeni Azərbaycan Partiyası bu gün milyonların partiyasına çevrilərək ulu öndər Heydər Əliyevin ideyalarının, həyata keçirilən siyasətin təbliğatçısı və iştirakçısı kimi davamlı uğurları ilə diqqət mərkəzindədir. Ən əsası bugünümüzün reallıqları ulu öndər Heydər Əliyevin ziyalıların müraciətinə cavabında əksini tapan arzu və istəklərinin təsdiqidir. Dünənin, bu günün partiyası kimi gələcəyə böyük inamla addımlayan Yeni Azərbaycan Partiyası sözlə əməl birliyini, monolitliyini daim qoruyur, sıralarını kəmiyyət və keyfiyyət baxımından zənginləşdirir. Bu gün 760 mindən artıq üzvü sıralarında birləşdirən partiya dünya təcrübəsində analoqu olmayan bu mühüm uğura da imza atıb ki, yaranmasından 7 ay sonra iqtidar partiyası kimi fəaliyyətini davam etdirir, arxada qalan 29 illik tarixini qələbələr və uğurlar səhifəsi ilə zənginləşdirib. Azərbaycanın müstəqillik tarixinin 29 ilinə bələdçilik edən Yeni Azərbaycan Partiyası gələn il yaradılmasının 30 illiyini qeyd edəcək. Cari ilin martın 5-də ölkəmizin 44 günlük İkinci Qarabağ müharibəsində yaratdığı yeni reallıqlar fonunda VII qurultayını keçirən Yeni Azərbaycan Partiyasının 29 ilə yaxın dövrdə qazandığı uğurlardan geniş bəhs edən dövlətimizin başçısı İlham Əliyev bir daha bu məqamı xüsusi qeyd etdi ki, partiyanın adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Yeni Azərbaycan Partiyası Heydər Əliyevin ətrafında yaradılmış, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə nümayiş etdirdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi.

“Faktiki olaraq 1992-ci ilin noyabr ayı gənc ölkəmizin həyatında yeni bir mərhələyə yol açdı. Ondan sonra heç bir il keçməmiş - 1993-cü ilin oktyabr ayında Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident vəzifəsinə seçildi və ölkəmizin böhrandan çıxma prosesi artıq başladı” söyləyən möhtərəm Prezidentimiz İlham Əliyev bu vəzifəni qarşıya qoydu ki, biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər. Dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir.

Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var. Həyat dəyişir, dövr dəyişir. Bütün bunları önə çəkən cənab İlham Əliyev partiyanın yeni proqramının hazırlanması, bu sənədin yeni dövrlə bağlı bütün məsələləri özündə ehtiva etməsini qarşıya mühüm vəzifə kimi qoydu. Və bir daha bu çağırış edildi ki, o tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın: “Bu müstəqillik tariximiz məhz ondan başladı, 1991-ci ilin oktyabrından yox... Ona görə bizim əsl müstəqillik tariximiz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki ona qədər müstəqillik sözdə var idi, amma faktiki olaraq yox idi. Azərbaycan müstəqil siyasət apara bilirdi? Yox! Öz hüdudlarını qoruya bilirdi? Yox! Beynəlxalq aləmdə öz sözünü deyə bilirdi? Yox! Bəs bu, nə müstəqillikdir?”

## Heydər Əliyev yeni Azərbaycan yaratdı, müstəqilliyimizi əbədi, dönməz etdi

Əlbəttə, müstəqillik tariximizin ilk illərini düzgün təhlil edərək bugünkü uğurlarımızın Heydər Əliyevin adı ilə bağlı olduğunu böyük inamla qeyd edirik. Möhtərəm Prezidentimiz İlham Əliyev daim bu çağırışı edir ki, müstəqillik tariximizi tarixi paralellər fonunda təhlil etməli, o günlər haqqında tam təsəvvürə malik olmayan gənc nəsil nəyin bahasına müstəqilliyimizi qoruyub saxlaya bildiyimizi bilməlidir.

Dahi şəxsiyyət Heydər Əliyev bildirirdi ki, müstəqilliyi qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər çətindir. Bugünkü uğurlarımız üçün kimə borclu olduğumuzu gənc nəsil bilməlidir. Bu, inkaredilməz həqiqətdir ki, əgər ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan bəlkə də ancaq bir yarımmüstəmləkə kimi yaşaya bilərdi. Heydər Əliyev Azərbaycanı müstəqilliyini itirmək, bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Ulu Öndər hər bir ölkənin inkişafında sabitliyin əsas rol oynadığını önə çəkərək ölkəmizi xaosdan, anarxiyadan xilas etdi. Bu tarixi paralel daim xalqımız tərəfindən aparılır ki, ümummilli lider Heydər Əliyev necə hakimiyyətinin birinci dövründə Azərbaycanı keçmiş İttifaqın geridə qalmış ölkəsindən ən qabaqcıl ölkəsinə çevirdi, eləcə də 1993-cü ildə hakimiyyətə qayıdışı ilə Azərbaycanı yenidən qurdu. Azərbaycan qısa müddətdə sabitlik məkanına çevrildi, ölkəmizlə iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin müstəqilliyimizin ilk illərində tərəddüdlərinə son qoyuldu, Azərbaycan qısa müddətdə investisiyalar məkanına çevrildi. Ulu Öndərin uzaqgörən siyasətinin nəticəsi olaraq iqtisadiyyatımızın inkişafında neft amilinə yüksək dəyər verildi, malik olduğumuz təbii resurslardan səmərəli istifadə etmək məqsədilə gərgin səylərin nəticəsində 1994-cü il 20 sentyabr tarixində “Əsrin müqaviləsi” imzalandı. Bununla da Azərbaycanın iqtisadi müstəqilliyinin əsası qoyuldu, siyasi müstəqillik üçün möhkəm təməl formalaşdı. “Əsrin müqaviləsi”nin əhəmiyyətindən bəhs edərkən onun iqtisadi tərəfi ilə yanaşı, siyasi əhəmiyyəti daha çox təhlil edilir. Çünki bu

# "Tarixi Zəfərimiz Heydər Əliyev siyasətinin təntənəsidir"

*Əgər Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycan bəlkə də ancaq bir yarımmüstəmləkə kimi yaşaya bilərdi*



saziş Azərbaycana inamı artırdı, etibarlı tərəfdaş kimi nüfuz qazanmasında mühüm rol oynadı. Təsadüfi deyil ki, "Əsrin müqaviləsi"ndən sonra neçə-neçə neft-qaz sazişləri, Anlaşma Memorandumları imzalanıb. 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması, əməkdaşlığın coğrafiyasının regional çərçivədən çıxaraq beynəlxalq müstəvidə inkişafı da deyilənlərin təsdiqidir. Çoxlarına əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri reallığa çevrildi, Cənub Qaz Dəhlizi layihəsi görülən işlərin zirvəsi kimi dəyərləndirilərək reallaşdırıldı. Onun əsas seqmentlərindən olan TANAP və TAP layihələri uğurla icra edilərək istifadəyə verildi. Ulu Öndərin böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondu neft-qaz gəlirlərinin idarə olunmasında şəffaflıq prinsipini qoruyaraq mühüm sosial-iqtisadi layihələrin icrasını təmin edir.

Ümummilli Lider Azərbaycanda demokratik cəmiyyətin yaradılması istiqamətində mühüm addımlar atdı. 1995-ci il 12 noyabrda ümumxalq səsverməsi yolu ilə qəbul olunan milli Konstitusiyamız dövlətçiliyimizin əsaslarının yaradılmasında əsas rol oynadı. Demokratik cəmiyyətin varlığının əsas atributları olan insan hüquqlarının qorunması, azad mətbuatın formalaşması, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində atılan addımların uğurlarını bugünkü reallıqlarımızda aydın görürük. Azərbaycanın demokratiya təcrübəsi dünyaya nümunə göstərilir.

Dahi şəxsiyyətin Azərbaycan dövləti qarşısında xidmətlərindən bəhs edərkən onun müstəqil dövlət kimi beynəlxalq aləmdə yeri və rolunun möhkəmlənməsi istiqamətində gördüyü işləri, böyük səyləri nəticəsində Azərbaycanın ətrafında yaradılan informasiya blokadasını yarmasını xüsusi qeyd etməliyik. Ümummilli Lider Dağlıq Qarabağ həqiqətlərini faktlar əsasında beynəlxalq ictimaiyyətə çatdırmaqla erməni yalanlarının ayaq tutub yeriməsinin qarşısını aldı. Bir daha dünyaya sübut edildi ki, Azərbaycan müstəqil dövlətdir, beynəlxalq səviyyədə tanınan ərazilərinin geri qaytarılması, ərazi bütövlüyünün bərpası üçün bütün imkanlardan istifadə edəcək və bu, onun suveren hüququdur. Məhz Ümummilli Liderin qətiyyətli addımları sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşdı, xarici siyasətimizin əsas məsələsi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişdi, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüququn normativ sənədlərində öz əksini tapmışdır. Ulu öndər Heydər Əliyev, eyni zamanda, "Sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordun olmalıdır" tezisini önə çəkərək ordu quruculuğu sahəsində önəmli addımlar atdı. Bu faktı xüsusi qeyd etməliyik ki, hələ hakimiyyətinin birinci dövründə Azərbaycanı gələcəkdə müstəqil dövlət kimi görmək istəyən Ümummilli Lider bir sıra mühüm addımlar atmışdır ki, bunlardan ən önəmlisi gənclərimizin keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsili və C.Naxçıvanski adına hərbi liseyin yaradılması idi. Bu gün Azərbaycan Ordusunda xidmət edən zabitlərin böyük əksəriyyəti bu liseyin yetirmələridir.

Bu ümumiləşdirməni apara bilərik ki, Ümummilli Lider yeni, müasir Azərbaycanı qurdu. O, "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" fikirləri ilə xalqına, dövlətinə bağlılığını ifadə etdi. Onun düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanın gələcəyi üçün möhkəm baza formalaşdı ki, son 17 ildə bu siyasi kursun möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan ən yüksək zirvələri fəth edir.

## Xalq 2003-cü ildə Heydər Əliyev siyasətinə səs verdi

2003-cü ildən başlanan Böyük yolun davamının Azərbaycana qazandırdığı ən böyük uğur 30 ilin işğalına, torpaq həsrətinə son qoyulması, ərazi bütövlüyümüzün bərpasıdır. Bu Zəfəri şərtləndirən amillər ölkəmizin ayrı-ayrı sahələrdə qazandığı uğurlar, ən əsası gənc nəsildə Vətən, torpaq sevgisinin dərinləşməsi, vətənpərvərlik hissinin daha da artmasıdır. 2003-cü ildə keçirilən andiçmə mərasimində Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdiriləcəyini bildirən cənab İlham Əliyevin son 17 ildə fəaliyyətinə diqqət yetirsək hər vədini konkret əməli işdə təsdiqlədiyini görmək mümkündür. Ölkədə sabitliyin, iqtitsadi tərəqqinin mövcudluğunu bütün inkişafın əsası kimi dəyərləndirən ölkə Prezidenti neft gəlirlərindən səmərəli istifadəni təmin etməklə qeyri-neft sektorunu inkişaf etdirdi. Cənab İlham Əliyev bütün çıxışlarında bəyan etdi ki, inkişaf etmiş ölkələrin təcrübəsinə diqqət yetirsək, bu tərəqqinin əsasında bilik, savad, yeni texnologiyalar dayanır. Məhz bu kontekstdən yanaşaraq dövlətimizin başçısı İlham Əliyev "Neft kapitalını insan kapitalına çevirək" tezisini irəli sürdü. Son 17 ilin uğurlarına diqqət yetirsək bu tezisin artıq real həyatda öz təsdiqini tapdığını görərik. Bu gün paytaxt və bölgələr arasında fərq tamamilə aradan götürülüb. Rayonlar arasında sağlam rəqabət gedir. Regional inkişaf proqramlarının uğurlu icrası hər bir bölgənin, kənd və qəsəbənin həyatında özünü qabarıq şəkildə göstərir.

Dayanıqlı inkişafın təmin edilməsi üçün ciddi islahatların aparılması əsas hədəflərdən biri kimi qarşıya qoyulub. "İslahatlara alternativ yoxdur... Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər" söyləyən dövlətimizin başçısı İlham Əliyevin uğurlara yol açan düşünülmüş və məqsədyönlü siyasəti, ayrı-ayrı sahələri əhatə edən Dövlət proqramları, ənənəyə uyğun olaraq hər ili bir sahələnin adı ilə bağlanması və bu istiqamətdə təkmil islahatların həyata keçirilməsi Azərbaycanın beynəlxalq maliyyə qurumlarının, reytinq agentliklərinin hesabatlarında da liderliyini qorumasını şərtləndirir. İnkişaf modeli dünyaya nümunə göstərilən Azərbaycan beynəlxalq maliyyə və iqtisadi qurumların hesabatlarında ən islahatçı ölkə kimi qərarlaşıb.

Son 17 ildə Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi nəticəsində ölkəmiz sabitlik diyarı, iqtisadi möcüzələr ölkəsi kimi mövqeyini daha da möhkəmləndirib, müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu məkanda yerləşən ölkə olaraq beynəlxalq tədbirlərə ev sahibliyi ilə diqqət çəkib. Dünyada, o cümlədən ölkəmizdə koronavirus infeksiyası ilə mübarizə dövrü kimi xarakterizə olunan son bir ildə də Azərbaycan qlobal təşəbbüsləri, videoformatda təşkil olunan beynəlxalq əhəmiyyətli tədbirlərin təşkilatçısı və iştirakçısı kimi də diqqət çəkib. Dövlətimizin başçısının təşəbbüsü ilə Türk Şurasının, Qoşulmama Hərəkatının Zirvə görüşləri, BMT Baş Assambleyasının Xüsusi Sessiyası keçirilib. Azərbaycan 30-dan artıq ölkəyə humanitar dəstək göstərib. Bütün bunlar Azərbaycanın hər addımında səmimi olduğunu, dövlətlərlə, beynəlxalq təşkilatlarla münasibətlərində reallığa əsaslanaraq qarşılıqlı hörmət və maraq prinsiplərini əsas tutduğunu təsdiqləyir.

Bu gün Azərbaycana hansı sahədən baxsaq inkişaf, tərəqqi qaçılmazdır. Ölkəmizdə ordu quruculuğu sahəsində atılan addımların uğurlu nəticələri də göz önündədir. 44 günlük İkinci Qarabağ müharibəsində tarix yazan Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında olduğunu bir daha təsdiqlədi.

Bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı bu Qələbənin sevincini yaşayır. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində dünyaya səs salan bu Zəfərimiz tariximizin ən şanlı səhifəsidir. Qalib ölkənin qalib Lideri kimi işğaldan azad edilmiş torpaqlarımıza davamlı səfərlər edən cənab İlham Əliyev hər dəfə bu fikri bildirir ki, hətta hava da sevinir, çünki bu torpaqlara əsl sahibləri gəlib. Azərbaycan Ordusu erməni silahlı qüvvələrini iti qovan kimi torpaqlarımızdan qovdu. Ordumuzun gücü, qüdrəti qarşısında diz çökən Ermənistanın illərdir yaratdığı "məğlubedilməz erməni ordusu" mifi darmadağın edildi. Bu gün dünya Azərbaycan Ordusunun qəhrəmanlığından, döyüş taktikasından bəhs edir. "Əlbəttə ki, hərbi sahədə müharibə bizim şanlı səhifəmizdir. Amma, eyni zamanda, təcrübədir" söyləyən ölkə Prezidenti bildirir ki, indi beynəlxalq hərbi ekspertlər deyirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb: "Biz elə planlaşdırmalıyıq ki, bəlkə də əlli ildən sonra XXII əsrin müharibəsinə də hazır olaq. Çünki güc hər şeyi həll edir. Əfsuslar olsun ki, bu, belədir. Beynəlxalq hüquq işləmədiyi yerdə ancaq güc amili həlledici ola bilər".

Vətən müharibəsi beynəlxalq münasibətlərdə güc və beynəlxalq hüququn nə kimi rol oynadığı açıqladı. Azərbaycanın son illərdə informasiya mübarizəsində qazandığı uğurlar diqqəti cəlb edir. 2011-ci ildə Azərbaycanın 193 ölkədən 155- nin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 2019-cu ildə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisat olan, 120 üzvü sıralarında birləşdirən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə ev sahibliyi etməsi, dövlətimizin başçısı İlham Əliyevin Rusiyanın Soçi şəhərində dünyanın məşhur "beyin mərkəzləri"ndən biri olan "Valday" Beynəlxalq Diskussiya Klubunun "Şərq şəfəqləri və dünya siyasi quruluşu" mövzusunda XVI illik iclasında, MDB Dövlət Başçıları Şurasının Aşqabad sammitində çıxışı, "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı və sair kimi diplomatik uğurlarımız münaqişənin həllində stimulverici amil oldu. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub, ölkəmizin həyatında yeni səhifə açılıb, işğaldan azad edilmiş torpaqlarımızda quruculuq və bərpa işləri həyata keçirilir. Tezliklə xalqımız hər bir vədini konkret əməli ilə təsdiqləyən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Böyük Qayıdışın da sevincini yaşayacaq.

Heydər Əliyev siyasətinin uğurlarının miqyası o qədər genişdir ki, bir yazıda əhatə etmək qeyri-mümkündür. Bunların ümumiləşdirilmiş ifadəsi bu gün Azərbaycanın adının tarixə qalib ölkə, Prezident İlham Əliyevin qalib Sərkərdə, xalqımızın məğrur, yenilməz xalq, ordumuzun rəşadətli ordu kimi yazılmasıdır. Ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss edən dövlətimizin başçısı İlham Əliyev hər birimizin qürur ünvanıdır. Cənab İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşən xalqımızın Liderinə sevgisi sonsuzdur.

***Musa Musayev***
***Yeni Azərbaycan Partiyası Təftiş Komissiyasının üzv***

# Erməni barbarlığı:

## dağıdılan tarixi və dini abidələr

**Azərbaycan xalqı 30 ilə yaxın bir zamandan sonra işğaldan azad olunmuş torpaqlarımızda erməni vəhşiliyinin izləri ilə daha yaxından tanış olur. Ermənilərin işğal etdikləri ərazilərimizdə törətdikləri vandallıq ağıla sığmayan vəhşilikdir. Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçirilib. Ərazilərdə abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib. Ermənistan qanunsuz silahlı birləşmələri tərəfindən dövlət əmlakının və xüsusi mülkiyyətdə olan əmlakın məhv edilməsi, talan edilməsi ilə bağlı Azərbaycan dövlətinə və vətəndaşlarına küllü miqdarda ziyan vurub.**
















### Prezident İlham Əliyev: "Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir"

Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun konvensiyasına zidd olsa da işğal altında və Ermənistanda qalan Azərbaycan mədəniyyət abidələrinin əksəriyyəti məhv edilib. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla öz kimliklərini nəinki Azərbaycan xalqına, eləcə də bütün dünyaya göstərdilər. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib."

### ERMƏNİ VANDALİZMİ HİDDƏT DOĞURUR

Bu gün dünya mətbuatı erməni vandallığına qarşı öz münasibətini qələmə alır və onların törətdikləri əməllər kəskin şəkildə pislənilir. Kolumbiyanın nüfuzlu rəqəmsal KİV-lərindən olan "Las2Orillas" qəzetində tanınmış jurnalist Roberto Trobaxonun müəllifi olduğu, Azərbaycanın azad olunmuş ərazilərində 30 ilə yaxın işğal müddətində Ermənistan tərəfindən törədilmiş kütləvi dağıntılar və YUNESCO-nun erməni vandalizminə laqeyd yanaşmasından bəhs edən "YUNESCO kor, kar, lal olub, yoxsa əsirə çevrilib?" sərlövhəli məqalə dərc olunub. Məqalədə Şuşa, Ağdam, Qubadlı, Zəngilan və digər şəhərlərimizdə Ermənistanın mədəni soyqırımı törətdiyi, bu ərazilərdə dini ziyarətgah, məscid, muzey, arxeoloji yer, məzarlıq və çoxlu sayda digər mədəni və dini abidələri məhv etdiyi bildirilir və bu hərəkətlərin insanlıq əleyhinə cinayət olduğu vurğulanır. Məqalədə qeyd olunur ki, YUNESCO-nun beynəlxalq təşkilat kimi rolu dünyada tarixi-mədəni və dini abidələrin qorunması olduğu halda, Ermənistanın ötən ilin sonlarınadək işğalda saxladığı Azərbaycan torpaqlarında törətdiyi vandalizmə heç bir münasibət bildirməyib. Bu müddət ərzində bir dəfə də bu ərazilərə müşahidə missiyası təşkil etmədiyi söylənilir və bu təşkilatın erməni vandalizmi qarşısında səssiz qalmasının təəccüb və hiddət doğurduğu deyilir. Azərbaycan Prezidenti İlham Əliyev Zəngilana səfəri zamanı düşmən tərəfindən dağıdılmış məscidin qarşısında çıxışı zamanı bu məsələyə toxunaraq bildirmişdi: "Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Elə müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub".

Məqalədə UNESCO-nun təşkilatdaxili siyasi qərəzin əsirinə çevrilib-çevrilmədiyi sual edilir.

Azərbaycan müasir dünyada haqq səsini dünyaya çatdırır. Məlum olduğu kimi, Xarici İşlər Nazirliyinin hazırladığı "Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində İslam dininə aid tarixi və mədəni irsin məhv edilməsi" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davam edən təcavüzü nəticəsində Azərbaycanın tarixi və mədəni irsinin dağıdılması və təhqir olunması" adlı hesabatlar hazırlanaraq UNESCO başda olmaqla, BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, ISESCO-ya, digər beynəlxalq təşkilatlara təqdim edilib.

Dağıdılan dini abidələrimizə nəzər salarkən Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. bu sırada vurğulanmalıdır. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi.

### TOLERANTLIQ SİYASƏTİ ÖLKƏMİZDƏ YAŞAYAN ETNİK VƏ DİNİ İCMALAR ARASINDA DOSTLUĞU VƏ QARDAŞLIĞI MÖHKƏMLƏNDİRİR

Azərbaycan ərazisindəki bütün abidələr isə dövlət səviyyəsində qorunur. Multikultural və tolerant yaşam tərzi ilə dünyada tanınan Azərbaycanda bu mühitin formalaşması dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir insana olan bərabər münasibətin nəticəsidir. Dövlətimizin həyata keçirdiyi tolerantlıq siyasəti ölkəmizdə yaşayan etnik və dini icmalar arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə öz təsirini göstərir. Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir. Dünyada yəhudilərin azad şəkildə dini inanclarını icra etdiyi ölkələr içərisində Azərbaycan birinci yerdədir.

Ölkəmizdə 7 sinaqoq və 4 gürcü kilsəsi fəaliyyət göstərir. Hətta Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə baxmayaraq, Bakıda erməni kilsəsi qorunub-saxlanılır. Bu və ya digər faktlar xalqımızın tolerantlığının bariz göstəricisidir.

Məqalədə, həmçinin Azərbaycan hökuməti və Heydər Əliyev Fondunun ölkə ərazisində dağıntıya məruz qalmış abidələrin bərpası ilə yanaşı, xaricdə də tarixi-mədəni irsin mühafizəsi istiqamətində fəaliyyət göstərdiyi bildirilir. Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətili işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də diqqəti cəlb edir.

Məqalədə Heydər Əliyev Fondunun elmi-mədəni layihələrin həyata keçirilməsi üçün UNESCO-ya maliyyə yardımları göstərdiyi, bu müsbət fəaliyyətin Latın Amerikası regionunda da təzahür etdiyi, bu çərçivədə 2017-ci ildə Qvatemalada qeyri-maddi mədəni irsin qorunması üzrə bacarıqların artırılması ilə bağlı layihə çərçivəsində təlim seminarlarının keçirilməsini maliyyələşdirdiyi bildirilir.

Erməni barbarlığının nəticəsi olaraq dağıdılan abidələrimiz qısa bir zamanda bərpa olunacaq və törətdikləri əməllərə görə, qanun qarşısında cavab verəcəklər. Qarabağdakı bütün müsəlman və xristian-alban abidələri Azərbaycan xalqının tarixi, mədəni və dini irsinə məxsusdur. Ölkəmizin zəngin irsinin mühafizəsi bundan sonra da yüksək səviyyədə təmin ediləcək, o cümlədən işğaldan azad olunmuş ərazilərdəki abidələrin bərpası, təmiri və yenidən qurulması işləri həyata keçiriləcəkdir. Artıq bu istiqamətdə işlərə start verilib.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Dünya İqtisadi Forumu ilə əməkdaşlıq çox əhəmiyyətlidir

**Son günlər ölkəmizin siyasi gündəmi kifayət qədər zəngindir. Cənab Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizə səfəri, keçirdiyi görüşlər həm vətəndaşlarımız, həm də beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə izlənilir. Bütün bu qeyd olunanlar təkcə izlənilmir, hətta beynəlxalq səviyyədə belə yüksək qiymətləndirilir və ölkə rəhbərinin son görüşlərinə nəzər salsaq, bunun əyani şahidi olarıq.**

İlk növbədə qeyd eymək lazımdır ki, Azərbaycan regional və qlobal iqtisadi-siyasi proseslərin fəal iştirakçısıdır. Təbii ki, buna zəmin yaradan amillər var və bu amillərin birincisi, məhz cənab Prezident İlham Əliyevin uzun illərdən bəri böyük səbr və qətiyyətlə həyata keçirdiyi ardıcıl, düşünülmüş, uzaq strateji hədəflərə hesablanmış siyasətidir. Bu düşünülmüş siyasət hazırda uğurla davam edir və müsbət nəticələri barədə gözləntilər var. Dövlət başçısının bir neçə gün ərzində keçirdiyi görüşlərin, həyata keçirdiyi səfərlərin siyahısına nəzər salsaq, atılan hər addımın ölkəmizin inkişafına, vətəndaşlarımızın təhlükəsiz həyatının və rifahının təmin edilməsinə, regionda davamlı sülhün əldə edilməsinə xidmət etdiyinə bir daha əmin oluruq.

Son günlər ərzində, Azərbaycan Prezidentinin BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında videoformatda çıxışı, ailə üzvləri ilə birlikdə Cəbrayıl və Zəngilan rayonlarında bir sıra mühüm obyektlərin və infrastruktur layihələrinin təməlini qoyması, Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin təşəbbüsü ilə onunla videokonfrans formatında görüş keçirməsi, “Boeing Commercial Airplanes” şirkətinin prezidenti və baş icraçı direktoru Stenli Dili qəbul etməsi, məhz ölkəmizin inkişafına, vətəndaşlarımızın təhlükəsiz həyatının, rifah halının daha da yaxşılaşdırılmasına, regionda davamlı sülhün əldə edilməsinə hesablanıb.

Xatırladaq ki, bu yaxında ABŞ dövlət katibi Entoni Blinken də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə telefonla zəng edib və bu fakt da təsdiq edir ki, ölkə başçımızın regionda genişmiqyaslı, çevik bir siyasət yürütdüyü dünya ölkələrinin diqqətindən yayınmır və buna müsbət münasibət baslənilir. Entoni Blinkenin zəngi ölkəmizin mövqelərinin möhkəmləndirilməsi, milli maraqlarımızın təmin edilməsi istiqamətində əldə edilən uğurlara olan müsbət münasibəti də ifadə edir desək, yanılmarıq. Xüsusilə qeyd etmək lazımdır ki, ABŞ dövlət katibi Entoni Blinkenin telefon zəngi və səsləndirdiyi fikirlər, Amerika Birləşmiş Ştatlarının ölkəmizə verdiyi dəyəri, cənab Prezident İlham Əliyevin qlobal baxış bucağına, prinsipial və ədalətli mövqeyinə hörməti və ehtiramını təsdiq etməklə yanaşı, ölkə başçımızın bir lider kimi yüksək beynəlxalq nüfuza sahib olduğunun isbatıdır.

Məlum olduğu kimi, Dünya İqtisadi Forumu ilə ölkəmiz arasında uzunmüddətli səmərəli əməkdaşlıq həyata keçirilir. Bu əməkdaşlığın əhəmiyyəti, səmərəliliyi heç şübhəsiz ki, hər iki tərəf üçün kifayət qədər böyükdür. Məhz buna görə də görüşdə, ölkəmizlə Dünya İqtisadi Forumu arasında uzunmüddətli səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirildi. Hətta, bu əməkdaşlıq çərçivəsində Azərbaycanın Dünya İqtisadi Forumunun bir sıra təşəbbüslərində fəal iştirak etdiyi qeyd olundu ki, bu heç də təsadüfi deyildi.

Cənab Prezident İlham Əliyevlə görüşdə Borge Brendenin investisiyaların cəlb edilməsi üçün ölkəmizdə yaxşı mühitin olduğunu vurğulaması bu əməkdaşlığın bundan sonra daha da genişlənəcəyindən xəbər verir. Bu ələlxüsus ondan xəbər verir ki, əməkdaşlığın daha da genişləndirilməsi sayəsində Azərbaycan işğaldan azad edilmiş əraziləri iqtisadi cənnətə çevirəcək. Təbii ki, bütün bunlar da öz növbəsində, Qarabağda həyata keçiriləcək layihələr, eyni zamanda regiondakı iqtisadi proseslərə stimul verəcək. Bir sözlə, görünür ki, ərazilərimizdə qarşıda daha böyük işlər və ölkəmizi daha böyük gələcək gözləyir.

Cənab Prezident İlham Əliyevin Borge




Brendeyə işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən infrastruktur layihələri, investisiyaların cəlb olunması barədə məlumat verməsi də təsadüfi deyildi. Ölkə rəhbərimizin, həmin ərazilərdə yenidənqurma prosesi getməsi, qarşıda nəhəng işlər olduğu, böyük bir ərazinin tamamilə yenidən qurulacağı barədə dedikləri də onu göstərir ki, indi səylərin əsas istiqaməti ərazilərin yenidən qurulması olacaq və bu, həmçinin ölkə iqtisadiyyatının qeyri-enerji sektoruna, xüsusilə tikinti sahəsinə təkan verəcək.

Bir neçə gün əvvəl “ağıllı kənd” konsepsiyası ilə yenidən qurulacaq kəndlərin təməlinin qoyulduğunu vurğulayan dövlətimizin başçısı perspektivdə mühüm layihələrin olduğunu əbəs yerə diqqətə çatdırmayıb. İşğaldan azad edilmiş ərazilərin “yaşıl zona” elan etdiyi, həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” konsepsiyasından istifadə olunacağı da təsadüfi qeyd olunmayıb. Bununla Cənab Prezident şəhərlər üçün baş planların hazırlandığını, enerji istehsalı, elektrik enerjisi, avtomagistrallar, dəmir yolları, hava limanları ilə bağlı infrastruktur layihələrinin həyata keçirildiyini bildirib və bu sahədə Dünya İqtisadi Forumu ilə əməkdaşlığın perspektivlərinə toxunub. Heç şübhəsiz ki, şəxsən Cənab Prezident tərəfindən sadalanan layihələr əməkdaşlıq üçün imkanlar deməkdir və bundan gələcəkdə istifadə olunacağı təkzib edilə bilməz. Çünki, belə layihələr məhz Dünya İqtisadi Forumu üçün də maraq kəsb edir və biz bunun yaxın gələcəkdə bəhrəsini, nəticələrini görəcəyik.

Görüşdə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri şəbəkəsinin afilə edilmiş Azərbaycan Mərkəzinin fəaliyyəti də vurğulanıb. Dövlətimizin başçısı MDB regionunda ilk bu cür mərkəzin məhz Bakıda yaradılmasına diqqət çəkib. Əlbəttə ki, iqtisadiyyatı şaxələndirmək və islahatları davam etdirmək üçün, eləcə də investisiyaları cəlb etmək baxımından mərkəzin rolu danılmazdır və məhz bunu da ölkə başçımız xüsusilə qeyd edib. Xatırladaq ki, bu mərkəzin də əsası 2020-ci ildə Davosda Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin niyyət məktubunu imzalaması ilə qoyulub. Mərkəzin fəaliyyətinin təşkili üçün Dünya İqtisadi Forumu ilə sıx əməkdaşlıq da artıq təmin olunub. İlkin mərhələdə artıq süni intellekt və rəqəmsal iqtisadiyyatla bağlı təhlillər də aparılır. Məhz həmin mərkəzin fəaliyyəti ilə tanış olmaq üçün cənab Prezident Borge Brendeni Azərbaycana səfərə dəvət edib.

Borge Brende isə öz növbəsində investisiyaların cəlb edilməsi üçün ölkəmizdə əlverişli mühitin olduğunu deməklə, əslində, əməkdaşlığın gələcək perspektivlərinin olduğuna əminlik ifadə edib. Forumun pezidenti azərbaycanlı gənclərin çox mükəmməl olduqlarını vurğulayaraq, onların Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi işinə töhfə verəcəklərinə də əminliyini bildirib və bütün bunlar təsdiq edir ki, Dünya İqtisadi Forumunun ölkəmizlə əməkdaşlıqdan gözləntiləri böyükdür. Bu həm də onu göstərir ki, ölkəmizlə, Azərbaycanla əməkdaşlığa böyük maraq var.

Əlbəttə ki, ölkə rəhbərinin hər bir görüşündə səsləndirilən fikirlər, irəli sürülən layihələr Azərbaycanın maraqlarına, vətəndaşların rifah halının daha da yaxşılaşdırılmasına, sülh və əmin-amanlığın, təhlükəsizliyin, ərazi bütövlüyümüzün, suverenliyimizin qorunub saxlanılmasına hesablanıb. Atılan addımların iqtisadi yüksəliş üçün olduğu da göz qabağındadır və göründüyü kimi, iqtisadiyyatı güclü olan ölkə daim qələbələr qazanmaq əzmindədir və biz, 44 günlük müharibədə bunun şahisi olduq.

Heç şübhəsiz ki, Dünya İqtisadi Forumu ilə ölkəmiz arasında uzunmüddətli səmərəli əməkdaşlıq müxtəlif sahələrin inkişafına, ümumilikdə isə iqtisadi irəliləyişə öz töhvəsini verəcək. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı, sənaye, istehsal sahələri ilə yanaşı, turizmin də inkişaf etdirilməsi gözlənilir. Bunun üçün kifayət qədər şərait, imkan var və Dünya İqtisadi Forumu ilə əməkdaşlıq bu baxımdan çox əhəmiyyətlidir.

Nəzərə almaq lazımdır ki, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı bitgilərinin əkilib-becərilməsi perspektivləri böyükdür. Həmin ərazilərdə hektarlarla böş yerlər var ki, əkin üçün yararlıdır və bu torpaqlarda əkin sahələrinin olması məhsul bolluğu deməkdir. Bu, həm ölkənin daxili tələbatının ödənilməsi, həm də xarici bazarlara çıxış imkanlarının, ölkəmizin ixrac potensialının artması anlamına gəlir. Təkcə əkin sahələri deyil, meyvə bağlarının salınması, bostan bitgilərinin əkilib-becərilməsi üçün də imkanlar var və həqiqətən də işğaldan azad olunan əraziləri yaxın gələcəkdə cənnətə çevriləcəyinə zərrə qədər şübhə ola bilməz. Nəticə etibarı ilə bütün bunlar Azərbaycanın büdcə gəlirlərinin artmasına, vətəndaşların yaşayış şəraitinin daha da yüksəlməsinə gətirib çıxaracaq.

Təkcə kənd təsərrüfatı, sənaye və istehsal sahələri deyil, işğaldan azad olunmuş ərazilərdə türizmin iknişafı üçün də potensial böyükdür. Təbii ki, dilbər guşəmiz olan Qarabağa türistlərin axını da böyük perspektivlər vəd edir və bu türist axını, turistlərin cəlb olunması turizm biznesinin yaradılması deməkdir. Türizmin inkişaf etdirilməsi də öz növbəsində infrastrukturun daha da yaxşılaşdırılmasına, ərazilərin daha da gözəlləşdirilməsinə, yaşıllaşdırılmasına, quruculuq-abadlıq işlərinin, tikinti sektorunun vüsət almasına təkan verəcək.

İşğaldan azad olunmuş ərazilərimizdə istər kənd təsərrüfatının, istər sənayenin, istehsalın, istər turizmin və digər sahələrin fəaliyyətinin təşkil olunması, qurulması və inkişaf etdirilməsi həm də məşğulluq səviyyəsinin artması, işsizliyin azalması deməkdir. Bu isə öz növbəsində əhalinin gəlirlərinin artması, yoxsulluq səviyyəsinin azalması baxımından çox əhəmiyyətlidir. Çünki, istehsal sahələrinin yaradılması, əkinçilik, bağçılıq, bostançılıq sahələrinin həmi ərazilərdə salınması, turizmin yaradılması minlərlə vətəndaşımızın həmin ərazilərdə işlə təmin edilməsi deməkdir.

Bir sözlə, işğaldan azad olunmuş ərazilərimizdə iqtisadiyyatın müxtəlif sahələrinin fəaliyyətinin qurulması, inkişaf etdirilməsi qarşısıalınmaz prosesdir. Təbii ki, bütün bunların ölkəmiz üçün əhəmiyyətinin olması ilə yanaşı, görünür, Dünya İqtisadi Forumu kimi bir çox qurumlar üçün də maraq kəsb edir. Ümumiyyətlə, Azərbaycan əməkdaşlıq üçün ən münbit şəraiti olan ölkədir və göründüyü kimi, bu, bütün dünyanın maraq dairəsindədir. Məhz elə Dünya İqtisadi Forumu da ölkəmizlə əməkdaşlığa böyük önəm verir və forumun prezidenti Borge Brendenin timsalında bu maraq göz qabağındadır.

***İnam Hacıyev***

## RİA Novosti: “Paşinyan Qarabağla bağlı razılaşmaları yerinə yetirəcəyini vəd etdi”

İrəvan Dağlıq Qarabağla bağlı üçtərəfli razılaşmaları yerinə yetirmək üçün hər cür səy göstərməyə hazır olduğunu təsdiqləyir. SİA xəbər verir ki, bu sözləri Ermənistanda baş nazir vəzifəsini icra edən Nikol Paşinyan deyib və onun sözlərini RİA Novosti sitat gətirib. Rusiyaya məxsus mətbuat səhifəsində Nikol Paşinyanın fikirləri qeyd olunub.



“Son aylarda münasibətlərimizin daha da möhkəmləndiyini, sınaqdan bir neçə dəfə keçildiyini söyləyə bilərik. Çətin bir anda Rusiya bizə kömək əlini uzatdı, səbəb olan problemlərin həllinə kömək etdi. Pandemiya və onun nəticələri, Dağlıq Qarabağda olan köməkliklər göz önündədir. Rusiya Federasiyası hərbi əməliyyatları dayandırmağa və bölgəmizdə vəziyyətin əhəmiyyətli dərəcədə gərginləşməməsinə nail ola bilib. Bu gün Rusiya sülhməramlılarının Dağlıq Qarabağda olması təhlükəsizliyin möhkəm zəmanətidir. Rusiya Federasiyası prezidenti Vladimir Putinin bölgədə sülhün əldə olunmasında rolunu və Dağlıq Qarabağın normal həyatı üçün səy şərtlərini xüsusilə qeyd etmək istərdim”, deyə Paşinyan Rusiya xarici işlər naziri Sergey Lavrov ilə görüşdə bildirib.

O, əldə edilmiş razılaşmaları həyata keçirmək üçün bütün tədbirləri görməyə davam edəcəklərini bəyan edib. “Sizi əmin etmək istərdim ki, Ermənistan 9 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatlarında əldə edilmiş razılaşmaları həyata keçirmək üçün bütün tədbirləri görməyə davam edəcəkdir. Biz, həmçinin konstruktiv dialoqun təmin olunması üçün hər cür səy göstərməyə hazırıq”, deyə Paşinyan əlavə edib.

Xatırladaq ki, bir qədər əvvəl Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Lavrovun aktual ikitərəfli və regional məsələləri müzakirə etmək üçün mayın əvvəlində Ermənistan və Azərbaycana səfər edəcəyini bildirmişdi. Mövcud razılaşmalara əsasən, Rusiya Xarici İşlər Nazirliyinin rəhbərinin 5-6 may tarixlərində İrəvana və 10-11 may tarixlərində Bakıya işgüzar səfərə gedəcəyini qeyd edir.

# Şəhidlik zirvəsinə qalxan qəhrəman

## Heybətalı Məmmədovun həyat hekayəsi

**Şəhidlik ən uca zirvə, torpaq uğrunda can fəda etməkdir. O torpaq ki, sənə oğul deyir. Vətən, torpaq kimi müqəddəs məfhumlar qarşısında hər kəsin borcu boya-başa çatdığı doğma yurdu qorumaqdır. Müqəddəs "Qurani-Kərim"də də buyurulur ki, şəhidlik və qazilik peyğəmbərlərdən sonra gələn adlardır. Əlbəttə ki, vətənə olan müqəddəs hissdir ki, torpaq igid oğullarımızı qoynuna şəhid kimi alır.**



Son dövr tariximizə nəzər salsaq görərik ki, minlərlə Azərbaycan övladı qanı ilə bu torpağı suvararaq şəhidlik zirvəsinə yüksəlib. İstər Birinci Qarabağ, istərsə də İkinci Vətən müharibəsində minlərlə igidlər, ərənlər öz qanları ilə torpağımızı suvardılar. Onların hər birinin qəlbimizdə möhtəşəm abidəsi ucalır. Bir ailənin ocağından çıxan oğullar xalqımızın övladına çevrildilər. Hər birinin döyüş yolu bir dastana çevrilib. Bu gün onlardan biri haqqında söz açacağıq. Birinci Qarabağ müharibəsi savaşında şəhid olan Məmmədov Heybətalı Dostali oğlu. Qısa bir ömür yolunda böyük bir ömür yaşayan, əbədiyyətə qovuşan Şəhidimiz. Keçdiyi yol şərəfli və qürurvericidir. 1972-ci il fevralın 23-də Şamaxı rayonunun Qaradüzlü kəndində anadan olub. Ailənin sonbeşiyi olub Heybətalı.

Tale elə gətirir ki, Heybətalı ailəsi ilə birlikdə Abşeron rayonun Güzdək qəsəbəsinə köçür. Uşaqlıqdan, yeniyetməlik çağından canına, qanına vətənpərvərlik, vətən sevgisi kimi ali hisslər hopmuşdu. Heç şübhəsiz ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır.

1990-cı ildə yaşıdları kimi, hərbi xidmətə çağrılır. Sovet İttifaqının süqutuna az qalmışdı. O, Rusiyanın Saratov şəhərində hərbi xidmətə başlayır. Bu o illər idi ki, artıq ictimai-siyasi vəziyyət gərgin idi. Qarabağda erməni separatçılar baş qaldırmışdı. Vətənin harayına, səsinə səs verir. Belə bir vəziyyətdə Azərbaycana qayıdan Heybətalı vətən torpaqlarının müdafiəsinə qoşulur. Döyüşün ən qaynar nöqtəsində ermənilərlə üz-üzə dayanaraq Ağdam, Füzuli istiqamətində gedən döyüşlərdə şücaətlə vuruşur. 1994-cü ilin yanvarında Horadizin və daha 21 kəndin erməni işğalçılarından təmizlənməsində qəhrəmanlıq göstərir. Buna görə, komandanlığın "Təşəkkürnaməsi"nə layiq görülür. Ermənlyə Azərbaycan oğlunun, döyüşçüsünün gücünü göstərir. O, döyüş meydanında igidcəsinə şəhid olur.

1994-cü ilin 23 fevralında anadan olduğu tarixdə düşmən tərəfindən snayperlə vurulur və 22 yaşında ikən ən uca zirvəyə - şəhidlik zirvəsinə yüksəlir. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında şəhid olan Məmmədov Heybətalı Dostalı oğlunun həyatı bu gün gənclərə nümunədir. Ərənlik, qəhrəmanlıq nümunəsi. Artıq şəhidlərimizin ruhu bu gün vətən torpağının səmasında azad dolanır. Tökülən qanlar yerdə qalmadı. Heybətalı kimi oğulların davamçıları erməniyə dərs verdilər. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı zamanı rəşadətli ordumuz bir-birinin ardınca düşmənə ağır zərbələr vuraraq təcavüzkar ölkənin siyasi-hərbi rəhbərliyini çıxılmaz vəziyyətə saldı. 44 gün davam edən Vətən müharibəsində işğal altında olan torpaqlarımız işğalçılardan azad olundu. Qisas qiyamətə qalmadı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi və Azərbaycan ordusunun gücü ilə bu gün torpaqlarımız azad nəfəs alır.



Vətənin şəhid oğlu Heybətalı Məmmədov haqqında mətbuatda soxsaylı məqalələr yazılıb. "Gecənin rəngi" romanında da onun əsas qəhrəmanlarda biri kimi ermənilərin məhv edilməsində böyük şücaət göstərməsi öz əksini tapıb. Xalqın adını uca tutan Heybətalı Məmmədov kimi şəhidlərimizin hər birinin bir həyat hekayəsi var. Qısa bir ömrün hekayəsi. Adının qarşısına baş əyirik bizim QƏHRƏMAN ŞƏHİDİMİZ. Allah sənə və bütün şəhidlərimizə rəhmət eləsin!

***İ.ƏLİYEV***

# "Seçkilərdən sonra Paşinyan özünə yeni sahib axtaracaq"



"Ermənistanın heç bir zaman siyasi kursu olmayıb. Yəni, Qərbə və ya Rusiyaya meyillik bu dövlət üçün keçərli deyil. Belə dövlətlər ancaq kiminsə nökəri, köləsi ola bilərlər. Strategiya anlayışının mənası budur ki, hansısa kursa meyilli siyasət yürüdürsən. Ermənistanın isə belə bir imkanı yoxdur və heç bir zaman da olmayıb". Bunu SİA-ya açıqlamasında Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev deyib.

Onun sözlərinə görə, indiyə qədər və tarixən Ermənistan kimlər tərəfindənsə idarə olunub, sabah da mütləq kimsə istiqamət, təlimat verəcək: "Ona görə də bu gündədirlər. Müstəqil siyasəti, idarəçiliyi olmayan ölkələr enində-sonunda məhvə, məğlubiyyətə, rəzalətə məhkum olurlar. Ermənistan da həmin qəbildəndir. Qarşıdakı seçkilərdən sonra isə Paşinyan özünə güman ki, yeni sahib axtaracaq. Çünki bunlar əl dəyişməyi, yer dəyişməyi, sahib dəyişməyi sevirlər. Üstəlik, tez-tez. Ona görə də indidən bu barədə konkret proqnoz vermək mümkün deyil ki, Ermənistanın gələcək taleyini hansı dövlət və ya dövlətlər idarə edəcək. Amma dəqiq olan budur ki, bunlar həmişə əmr qulu olacaqlar, müstəqil siyasət yürüdə bilməyəcəklər və kiminsə ağzına, əlinə, sözünə baxıb hərəkət edəcəklər".

***Gülyana***



# Qərbə təzim edənlərin əsl üzü - "Vətən üçün pis olan, mənə faydalıdır"

RƏFİQƏ

**Belə bir deyim var: "xəyanətin və satqınlığın ömrü az olduğu kimi, onu həyata keçirənlərin də ifşası hər zaman mütləq xarakter daşıyır". Başqa cür də ola bilməz. Niyə? Çünki bu məxluqlar, daha doğrusu, Qərbə təzim edən bu ünsürlərin qanı da, məkanı da Avropa küçələrindəki erməni üfunəti verən zibilliklər olub. Və o zaman "Vətən üçün pis olan, mənə faydalıdır" düşüncəsi ilə Qərbə təzim edən bəsit təfəkkürlü bu anti-milli ünsürlərin ölkəmizin uğurlarına, xalq-iqtidar birliyinin möhkəmlənməsinə, bir yumruq kimi birləşməsinə xələl gətirməyə çalışıblar. Bu, xəyanət, satqınçılıq deyilmi?**

Tarixin bütün dönəmində xəyanət və satqınlıq bağışlanmaz cinayət olub. Ələlxüsus da bu xəyanət və satqınlıq xalqına, dövlətinə və Vətənə qarşı ola. Xəyanət edən heç bir şəxsə haqq qazandırılmayıb, heç kim bağışlanmayıb. Azərbaycan xalqının mentalitetində də satqınlıq və xəyanət tarixən ən ağır əməl, cəzası isə çox ağır olan bir hal kimi qəbul edilib. Qərbə təzim edən bəsit təfəkkürlü bu anti-milli ünsürlər Vətən nədir, hardan başlayır sualına cavab verməyə qadir də deyillər. Çünki onların kirayə verilən beyinlərinin "məhsulu" - "Vətən üçün pis olan, mənə faydalıdır".

Və bu gün yüzlərlə igid oğul və qızlarımız bu Vətən uğrunda, 30 il həsrətində olduğumuz dədə-baba torpaqlar uğrunda canlarından keçib, şəhidlik dərgahına yüksəlmişlər. Bu ucalığa yüksələnlərin ömür yolu nə qədər qısa olsa da, şərəfli və örnək sayılır. Vətənin azadlığı, istiqlaliyyəti yolunda canını qurban verən, xalqın rifahı və xoşbəxtliyi naminə şəhid olan qəhrəmanlar heç vaxt unudulmur, ölümləri ilə ölümsüzlüyə qovuşur.

Ümummilli lider Heydər Əliyev deyirdi: "Sizin qəhrəmanlığınız bu gün həyata atılan, orduda xidmətə gedən və hərbi xidmətə hazırlaşan gənclər üçün örnəkdir, nümunədir. Vətən yolunda canlarını qurban vermiş, şəhid olmuş Azərbaycanın Milli Qəhrəmanlarının həyatı, onların qəhrəmanlığı bütün xalqımız üçün, o cümlədən, xüsusən gənclərimiz üçün örnəkdir, dərsdir".

Ulu Öndərin layiqli davamçısı Qalib Sərkərdə, Prezident İlham Əliyev demişdir: "Siz öz şəhid olmuş övladlarınızla fəxr edə bilərsiniz. Bütün Azərbaycan xalqı şəhidlərimizlə fəxr edir. Şəhidlərimiz daim bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaqdır".

Çünki bizim şəhidlərimiz Vətən, dövlət, xalq yolunda şəhid olublar. Ancaq...

Anti-milli ünsürlər üçün xalq, Vətən anlayışları yoxdur. Azərbaycana qarşı xaricdən müxtəlif istiqamətlərdə qarayaxma kampaniyaları aparan özləri "demokratiya carçısı" və "ədalət tərəfdarı" kimi qələmə verənlər, əslində, xarici anti-Azərbaycan dairələrin birbaşa nəzarəti altında və maliyyəsi ilə fəaliyyət göstərərək sifarişlər yerinə yetirənlərdir. Onların əsas məqsədi daha çox qrant almaq və mənimsəmək olub. Şübhəsiz ki, bu məqsədlərə xidmət edənlər xain və düşmən dəyirmanına su tökən Məhəmməd Mirzəli, Tural Sadıqlı, Orduxan Teymurxan, Arif Məmmədov, Vidadi İsgəndərli, Sevinc Osmanqızı, Qənimət Zahid və digər anti-milli ünsürlər üçün xalq, millət, Vətən anlayışı yoxdur.

Elə bu günlərdə sosial şəbəkələrdə ulayan sabiq səfir Arif Məmmədov işğalçı Ermənistan ordusunun vandallığını, təxribatlarını dəsdəkləyərək "yazıq erməni xalqının adı çıxıb" deyə "müdafiəsinə qalxaraq çıxışlar etməkdədir. Soruşmaq istərdik: beynini kirayə verən Arif Məmmədov erməniləri niyə bu qədər sevir? Cavabı o verməsə də, xalq cavabını verib. Elə buna görə də ermənilər sapı özümüzdən olan uzun zaman yemlədikləri xəyanətkar və satqınlardan - Vətən anlayışını anlamayan Məhəmməd Mirzəli, Tural Sadıqlı, Orduxan Teymurxan, Arif Məmmədov, Vidadi İsgəndərli, Sevinc Osmanqızı, Qənimət Zahid və digər ünsürlərdən istifadə etməklə Azərbaycan xalqını günahkar çıxarmağa çalışdılar.

Amerikalı yazıçı Paul Austerin xəyanətkar və satqınlar haqqında gözəl bir fikri var: "Sənə bir dəfə xəyanət edəni bağışlasan, səni yenə istifadə edər. Çünki xəyanət bir ruh halı deyil, xarakterin tökülüş formasıdır".

Yəni bir dəfə xəyanət edən bunu davamlı etməyə artıq öyrənir. Ona görə də xəyanətkara cinsindən asılı olmayaraq, şərəfsiz deyilir. Bu şərəfsiz Arif Məmmədov işğalçı Ermənistan ordusunu "göyə" qaldıraraq "məğlubedilməz", qəhrəman, mübariz Azərbaycan ordusunu "kloun" adlandırır. Bu qədər alçaq, şərəfsizlik, deyərdim ki, ən böyük cinayətkarlıqdır. Arif Məmmədov və digər Avropadakı qaragüruhlar hər şeylərini kirayə verənlərdir. Beyin kirayəyə veriləndə isə beynin bioloji sahibindən hec nə gözləməyə dəymez. Sabah hətta o, rahatlıqla erməni olduğunu belə dilə gətirə bilər. Necə ki, Avropadakı digər məxluqlar, məsələn, Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Tural Sadıqlı kimilər dəfələrlə oxşar fikirləri dilə gətiriblər, indi də Arif Məmmədov eyni dildə danışır.

Dəfələrlə şahidi olmuşuq ki, arif məmmədovlar, sevinc osmanqızılar Paşinyanın mətbuat xidməti kimi Ermənistanı tərifləyib. Hələ bir müddət erməni sevgisini göstərən Arif Məmmədov daha irəli gedərək, "erməni şəhid ailələri" ifadəsindən də istifadə etməkdən belə çəkinməyib. Erməni işğalçılarına "şəhid" deməklə Azərbaycan şəhidlərinin ruhuna və ailələrinə hörmətsizlik edən Arif Məmmədov bir daha sıralarında durduğu qrupun Azərbaycan xalqına olan düşmən münasibətini sərgiləyir. Azərbaycan əsgərinə "kloun" deyən, idmançılarımızı isə meşədən çıxmış heyvana bənzədən Arif Məmmədov şərəfsizliyinin son həddində olduğunu dəfələrlə nümayiş etdirib. Çünki onlar üçün tək müqəddəs dəyər puldur. Azərbaycana nifrət edən bu şəxslərin əsl üzü budur - "Vətən üçün pis olan, mənə faydalıdır".

Ancaq tezliklə bu şantajçılıqla məşğul olan düşmən çətirinin altına sığınıb öz xalqına, dövlətinə, ordusuna qarşı yalan və iftira atan bu xəyanətkarlar bilməlidirlər ki, onlar Azərbaycan xalqı və qanunları qarşısında mütləq və mütləq cavab verməli olacaqlar!

**9 may alman faşizmi üzərində qələbədən 76 il ötür. Bu tarixi qələbədə Azərbaycanın, onun övladlarının və neftinin əhəmiyyəti danılmazdır. Müharibə başlanandan keçən qısa müddətdə Azərbaycan ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilib, 700 mindən çox oğlan və qızları cəbhəyə yola salınmışdır. Göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib.**

# Qəhrəman Azərbaycan oğullarının döyüş salnaməsi

*Od-alov püskürən Böyük Vətən müharibəsinin dəhşətlərinin iştirakçısı Mürsəl Mürsəlov*



Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci kimi milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçərək, qəhrəman övladlarımız Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsinin düşməndən azad edilməsi uğrunda rəşadətlə döyüşmüşlər. Milli atıcı diviziyaları sırasında 416-cı milli atıcı diviziyanın da xüsusi rolu və yeri müstəsnadır. Bu diviziyda vuruşan həmyerlilərimiz sırasında Mürsəlov Mürsəl Nurulla oğlunun da ismi var. Mərd, qorxmaz, igid oğullarımız kimi, Mürsəl də döyüşə gənc bir döyüşçü kimi yola düşüb. Müharibənin dəhşətini, ağrıacısını yaşayan Mürsəl ən qaynar döyüş bölgələrində alman faşistləri ilə vuruşub. Od püskürən müharibənin dəhşətlərini, vahiməsini yaşayıb. Ölüm, itkin və əsir düşmək, sağlamlığını itirmək... Bu faciələri düşünərkən minlərlə insanın həyatını, arzularını yarımçıq qoyan müharibə törədənlərə nifrət daha artır.

Müharibənin başa çatmasından 76 il ötsə də, bu savaşın dəhşəti hələ də insanları tərk etməyib. Haqqında söz açdığımız Böyük Vətən müharibəsi döyüşçü M.Mürsəlovun qızı Ofeliya Mürsəlqızının atası ilə bağlı danışdığı xatirələri, keçdiyi döyüş yolunu əks etdirən dəlilləri diqqətə çəkərkən azərbaycanlı döyüşçünün portret cizgiləri göz önündə yaranır. Ofeliya xanım bunları həyəcansız danışa bilmir. Bir ata, döyüşçü. vətənpərvər insan haqqında danışarkən xatirəsində olanları çözələyir və uşaqlıq, gənclik yaddaşında daşlaşmış hər bir səhifəni vərəqləməyə çalışır. Çətin, şərəfli bir yoldan danışırdı. Mürsəl atanın həyat yoluna işıq salaraq onilliklərə səyahət edirdi.

## HƏYAT SALNAMƏSİNƏ YAZILAN MÜHARİBƏNİN OD-ALOVU

Müharibə başlayanda o da bir çox vətən oğullarımız kimi, tələbə idi, deyir Ofeliya xanım. 1918-ci ildə Ağsu rayonunun Növcü kəndində dünyaya göz açan M.Mürsəlov orta məktəbi bitirdikdən sonra Şamaxıda Müəllimlər Texnikumunda müəllimlik fakültəsinə daxil olur. Buranı müvəffəqiyyətlə bitirəndən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutuna (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) daxil olur. Bu, o zaman idi ki, artıq Böyük Vətən müharibəsi başlamışdı. Burada təhsil aldığı zaman Kürdəmir rayon Hərbi Komissarlığı tərəfindən çağırılır və cəbhəyə yola salınır. Vətən oğulları kimi, o da müsəlləh əsgər olaraq silaha sarılır. Gənc bir insan kimi həyatının salnaməsinin müəyyən hissəsi cəbhə bölgəsində yazılır. Faşizmə qarşı müharibədə qaynar nöqtələrdə vuruş meydanına atılır və döyüş yolu başlanır. 416-cı Taqanrov diviziyasında Ukraynanın alman faşizmindən azad olunması uğrunda döyüş meydanında əsl şücaət və əzmkarlıq göstərir. 1942-ci ilin payızında diviziya Şimali Qafqazda 44-cü ordu, az sonra 58-ci ordu tərkibində Mozdok istiqamətində döyüşlərə başlayır. Böyük Vətən müharibəsinin həlledici döyüşlərindən biri Mazdok döyüşündə azərbaycanlılardan ibarət diviziya böyük məharətlə vuruşur. Bu diviziya Taqanroq şəhərinin azad edilməsində fəal iştirakına görə, "Taqanroq diviziyası" adına layiq görülür.

Böyük Vətən müharibəsinin həlledici döyüşlərindən biri Mazdokda olub. Həmin döyüşdə azərbaycanlılardan ibarət diviziya alman döyüşçülərinə qarşı böyük məharətlə vuruşub. Ofeliya xanım söhbətində bildirir ki, atası müharibə dövrünün çox dəhşətli olmasına baxmayaraq, şərəfli olduğunu deyərmiş. Ofeliya xanım xatirələrini sanki bu gün baş verən hadisə kimi danışır. Deyir ki, atası qarlı-çovğunlu soyuq bir qış günündə döyüşlərin birində ağır yaralanır. Çox ağır bir vəziyyətdə hərbi hospitala yerləşdirilir. Ofeliya xanım deyir ki, müharibədən aldığı yara onu ömrünün son gününə qədər ağrıdırdı və elə bir ağrı yaranırdı ki, buna dözmək çətin idi. Müharibənin acılarını yaddan çıxara bilmirdi. Çox-çox illər sonra hətta yuxularında belə müharibənin dəhşətini yaşadığı hiss edilirdi.

## BİR AİLƏDƏ İKİ MÜHARİBƏ İŞTİRAKÇISI

Qəribə tale yaşayıb M.Mürsəlov. Böyük bir döyüş yolu keçən bizim qəhrəmana müharibənin dəhşətini yaşamış bir xanımla ailə qurmaq nəsib olur. Bir ailədə iki müharibə iştirakçısı. Qəribə təsadüf olsa da, gerçəklik bu idi. İki döyüşçünü birləşdirən sevgi gözəl, nümunəvi bir ailənin təməlini qoyur. Həyatın qara zolaqları artıq arxada qalmışdı. Yeni, qaynar bir həyatın başlağıcında iki gənc böyük məsləklərə doğru yol açırdı. M.Mürsəlovun bəs özünə həyat yoldaşı seçdiyi şəxs kim idi? Təqdim edəcəyimiz şəxs də böyük ürəyə sahib olan, arzuları bitib-tükənməyən Lütfəliyeva Ceyranxanım idi. Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirən Ceyranxanımın da bir gənc Azərbaycan qadını kimi həyat yolu müharibədən yan ötməmişdi. Ali təhsilini başa vuran Ceyranxanım Ağsu rayonuna 1940-cı ildə Bakıdan təyinatla işləməyə göndərilir. Sən demə, gənc həkimin də həyat yoluna Böyük Vətən müharibəsinin iştirakçısı olmaq yazılıbmış. Həkim kimi Kürdəmir rayon Hərbi Komissarlığından müharibəyə yola salınır. Yaralı insanlara şəfa vermək, onların sağlamlığının keşiyində durmaq kimi missiyanı od-alov içində yerinə yetirir.

Döyüşçülərin ən ağır zamanında yanında olan Ceyranxanım çox keçmir ki, düşmən gülləsinə tuş gəlir. Ofeliya xanım deyir ki, anası ağır yaralanır. Yüzlərlə döyüşçüyə şəfaverən həkim özü hərbi hospitala yerləşdirilir. Sağalandan sonra isə Ağsu rayonunun Ərəbmehdibəy kəndində xəstəxana müdiri çalışır və insanların sağlamlığı keşiyində durur. Elə tale onları bu rayonda, Ağsuda birləşdirir. Müharibə bitdikdən az sonra 1948-ci ildə eyni kənddə işlədikləri zaman ailə həyatı qururlar. Belə ki, müharibədən qayıdandan sonra M.Mürsəlov Ağsu rayonunun Ərəbmehdibəy yeddi illik məktəbində müəllim təyin olunur. 1948-ci ilə qədər Hacıqədirli kənd ibtidai məktəbinə direktor təyin olunur. Bir il sonra Ağsu rayonun Çiyni kənd ibtidai məktəbinə direktor göndərilir. 1950-ci ildən 1952-ci ilə kimi Xaçmaz rayonunda müəllim işləyir. 1952-1955-ci illərdə Sumqayıt şəhər məktəbində müəllim, 1955-ci ildə Ağsu rayonunun Növcü kəndində yeddiillik məktəbdə müəllim kimi çalışır.

M.Mürsəlovun dünyaya 4 övladı, üç oğul və bir qızı gəlir. Vətənə layiq, ləyaqətli, vətənpərvər övladlar Mürsəlovlar ailəsində tərbiyə alıb. O, iş yerində olduğu kimi, ailədə də tələbkar, diqqətcil insan olub. Təvazökarlıq və sadəlik xarakterini səciyyələndirən ən mühüm keyfiyyətlər ona qarşı hörmət və məhəbbət hissi yaradıb. Oğlanların hər biri hərbi xidmət keçərək, ali savad alıblar. Böyük oğlu Mürsəlov Elman rəssam-heykəltaraşlıq sənətinə yiyələnib. Repin adına Leninqrad Rəssamlıq Akademiyasında təhsil alıb. 2013-cü ildə dünyasını dəyişib. Mürsəlov Elxan Azərbaycan Politexnik İnstitutunu bitirib, ölkədə neft sənayesində çalışıb. 2020-ci ildə dünyasını dəyişib. Kiçik oğlu Mürsəloav Fərhad isə Xalq Təsərrüfatı İnstitunun iqtisadiyyat fakültəsini bitirib. Öz ixtisası üzrə yüksək vəzifələrdə çalışıb və hazırda təqaüdçüdür. Qızı Ofeliya Mürsəlova Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə 1968-ci ildə daxil olub və bu ali təhsil ocağını 1973-cü ildə müvəffəqiyyətlə bitirib. 1971-ci il 13-cü çağırış Azərbaycan Respublikası Qurultayında Oktyabr rayon üzrə 65-ci seçki dairəsindən ilk tələbə deputat kimi namizədliyi irəli sürülüb. Universiteti bitirdikdən sonra Ağsu rayonu Növcü kənd orta məktəbinə dil-ədəbiyyat müəllimi təyin olunub. Bir müddət burada çalışdıqdan sonra Təhsil Nazirliyinin göndərişi ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqoqika kafedrasına müəllim, daha sonra isə baş müəllim təyin olunub. 40 il bu ali təhsil müəssisəsində işləyib. 2012-ci ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin 90 illik yubileyi münasibəti ilə yüksək ixtisaslı kadrlar hazırladığına görə, Təhsil Nazirliyi tərəfindən Fəxri Fərmanla təltif olunub.Orta məktəbdən başlayaraq bu günə qədər qəzet və jurnallarda şeirləri və elmi məqalələri dərc olunub. 5 kitab müəllifidir.

Ofeliya xanım atasının Böyük Vətən müharibəsində qələbənin qazanılmasında şücaət göstərdiyinə görə, orden və medallarla təltif olunduğunu birdirib. Belə ki, o, "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 5 illiyi", "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 10 illiyi", "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 20 illiyi", "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 30 illiyi", "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 40 illiyi", "SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" və s orden və medallarla təltif olunub. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Sərəncamı ilə 1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 55 illiyi şərəfinə "1941-1945-ci illər müharibəsi Veteranı" nişanı ilə təltif olunmuşdur. Bir çox vətən oğulları kimi onun da bu təltiflərə layiq olması bizi qürurlandırır. Axı, Böyük Vətən müharibəsində qələbənin qazanılmasında Azərbaycanın, M.Mürsəlov kimi igid oğulların payı müstəsnadır. Həmin illərdə baş verən hadisələrin, müharibənin şahidi və iştirakçısı olan insanların qələbə istəyi ilə Berlinə qədər getmələri, fədakarlıqları və ərənlikləri haqqında söz açır və onların şücaəti yaddaşlardan silinmir. Onlar gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsinə çevrilib.

**Nəzakət ƏLƏDDİNQIZI**



# YAP Suraxanı rayon təşkilatının nümayəndələri şəhid ailəsini ziyarət ediblər

YAP Suraxanı rayon təşkilatının nümayəndələri Zığ qəsəbəsinin sakini olmuş, 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunmuş Vətən müharibəsi şəhidi leytenant Əliyev Samir Əliheydər oğlunun ailəsini ziyarət ediblər. Ailəyə təşkilat adından sovqat təqdim edib, ailənin qayğıları ilə maraqlanıblar. Səmimi söhbət əsnasında təşkilatın aparat rəhbəri Salman Əbdülov vurğulayıb ki, YAP-ın rayon təşkilatı hər an şəhid ailələrinin yanındadır və bundan sonra da onların problemlərinin həlli, çətinliklərinin aradan qaldırılması və yaşayış şəraitlərinin yaxşılaşdırılması istiqamətində imkanları çərçivəsində əllərindən gələni əsirgəməyəcəklər. Sonda şəhid ailəsi göstərilən diqqət və qayğıya görə Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatına öz minnətdarlığını bildirib.

**Z. BAYRAMOVA**

# Ağcabədidə silsilə tədbirlər davam edir



Ağcabədi rayonunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə tədbirlər davam edir. Növbəti tədbir YAP Ağcabədi rayon təşkilatı və Ağcabədi rayon gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə Ağcabədi rayonunun ümumtəhsil məktəblərinin komandaları arasında onlayn qaydada keçirilən intellektual oyun müsabiqəsi olub.Müsabiqəni YAP Ağcabədi rayon təşkilatının aparat rəhbəri Nazim Bünyatov açaraq Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında danışıb. O, ölkədə həyata keçirilən iqtisadi islahatlar, gənclər və idman siyasətinə diqqət yetirərək, bu sahədə reallaşan tədbirlərin əhəmiyyətini qeyd edib. 44 günlük Vətən müharibəsində erməni işğalçıları üzərində qazanılan Şanlı Qələbəyə diqqəti yönəldən N.Bünyatov qeyd edib ki, Azərbaycan Ordusunun gücü və Ali Baş Komandanın siyasi iradəsi və qətiyyəti ilə xalqımız bu qələbə sevincini yaşadı.

Müsabiqə iştirakçıları tərəfindən Azərbaycan tarixi və dövlətçiliyi, ölkə həyatında mühüm əhəmiyyət daşıyan hadisələr barədə ünvanlanan suallar cavablanırılıb.Sonra gərgin keçən müsabiqədə qaliblər müəyyən edilib.Müsabiqədə Ağcabədi şəhər 4 saylı tam orta məktəbin komandası I yerə, Ağcabədi şəhər 2 saylı tam orta məktəbin komandası II yerə, Hacıbədəlli kənd tam orta məktəbin və Qaravəlli kənd tam orta məktəbin komandaları III yerə çıxıbdır. Müsabiqənin qalibləri YAP Ağcabədi rayon təşkilatının Fəxri Fərmanı və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar.

**Zümrüd**

TƏRS BAXIŞ + FOTO

# Əli Kərimli kompüterlərə hansı virusu salıb?

*AXCP trolları yenə çalxalanır*

**Radikal müxalifət düşərgəsinə aid olan AXCP cinahı yenidən qarışıb və yaranan qarmaqarışıqlığın əsl səbəblərini, əslində, özlərində axtarmaları yerinə dərhal hakimiyyətə ittihamlar yağdıran trol şəbəkələri bununla da işlərini bitmiş hesab edirlər. Ancaq bütün mənalarda bu qaragüruhçuların qarşısına faktlar qoymaq lazım olur. Maraqlıdır ki, dolğun, təkzibolunmaz faktlar qarşılığında belə yaxalarını kənara çəkən Əli Kərimlinin "uşaqları" sanki üzərlərinə bir məsələni götürüblər - iqtidara qarşı qarayaxma kampaniyası aparmaq, bu vasitə ilə guya xalq qarşısında "hörmət qazanmaq". Amma hər şeyə rəğmən, nə hörmətləri var, nə də ki, izzətləri...**

Beləliklə, mövzu ilə bağlı YAP-ın gənc fəalı Anar Şahmuradovun son günlər cəhbəçilərin əsassız hay-küylərini ifşa edən statusunu diqqətinizə təqdim edirik:

- Dostlar, bir neçə gündür müxalif düşərgədə maraqlı, daha doğrusu ilginc bir "işin" şahidi olmaqdayıq. Deməli, müxalif mövqeli şəxslər Kompüterlərinə müdaxilə cəhdlərinin olması haqqında statuslar yazırlar. Bu halla qarşılaşanlar isə ancaq yaşlı şəxslərdir. Gənc yaşda olan şəxslər deyillər! Niyə məhz yaşlı adamlar? Bu suala gedişatda aydınlıq gətirəcəm. Kompüterinə müdaxilə edildiyi haqqında status yazan hər bir şəxs isə məsələdə cəbhəçi İlham Hüseynin adını hallandırırlar. Maraqlı məqamdır, deyilmi?




### Bunlar həyətə düşüb külək əsdiyini görəndə deyirlər, hakimiyyətin işidir

Deməli, Əli Kərimlinin trolbaşılarından olan İlham Hüseyn bir neçə gün öncədən belə bir məlumat buraxmışdı ki, bəs, onun facebook hesabına hakimiyyət tərəfindən müdaxilə edilir. Bu cahillər elə bilirlər ki, dünyada bunlardan başqa heç kəsin heç nədən xəbəri yoxdur. Facebooka nə müdaxilə? Facebook elə bir alqoritimlər əsasında qurulub ki, özün giriş adı və parolunu ikinci şəxsə verməsən, heç kim sənin hesabına müdaxilə edə, ikili faktoru aşa bilməz. Bir də ki, bunlar həyətə düşüb külək əsdiyini görəndə deyirlər, hakimiyyətin işidir. Nadan, cahil insanlar belə də ki, bundan artıq olası deyillər ki?!

Heç demə, İlham Hüseynin belə bir şayiə buraxmasının arxasında "böyük bir əməliyyat" var imiş. Təxminən bir həftədən çoxdur statuslar yazmağın başını buraxan İlham Hüseynin başı ağası Əli Kərimlidən aldığı ciddi bir tapşırığa qarışıbmış. Bu tapşırıq da nədir? Deyim bilin.

Deməli, bir qrup şəxs vardır ki, həmin şəxslərin nə işlərlə məşğul olduqları, haralardan nə aldıqları Əli Kərimlinin ciddi maraq dairəsindədir. Bu adamlar Əli Kərimli üçün nə özgə, nə də ki, doğma adamlardır. Necə deyərlər, Əli Kərimli üçün al da birdir, şal da! Elə öz cameəsindəkilərdir. Xüsusilə də milli şuraçılar və digər müxalif mövqeli şəxslər. Özü də yaşlı adamlar. Əli Kərimlinin İlham Hüseynin əli ilə qurduğu bu tələyə məhz yaşlı adamlar düşə bilərlər. Çünki onlar müsair texnologiyalar haqqında bir o qədər də bilgili deyillər. Bu tryuk təbii ki, gənclərə keçərli deyil.

### Əli Kərimlinin Cəmil Həsənli əndişəsi

Əli Kərimlinin "fəaliyyətlərini araşdırmaq" istədiyi şəxslərdən biri vəkil Fuad Ağayev, digəri isə özünü "Milli Şura" adlı qurumun sədri adlandıran Cəmil Həsənli olub. Olsun digər bəzi şəxslər də bu riskə üz-üzə qalıblar. Deməli, Əli Kərimli bu adamların ona bəlli olmayan işlərini bilmək istəyib. Xüsusilə, Cəmil Həsənlinin Londonda haradan nə aldığı, görünür, bu isə Əli Kərimlini əndişələndirib. Bunun üçün də İlham Hüseynə komanda verib ki, gör nə edirsən.

"Çoxbilmiş" İlham Hüseyn də həmin şəxslərin kompyuterlərinə məsafədən idarəetmə proqramları yükləməyə cəhd göstərib. Bunun üçün həmin şəxsləri müxtəlif bəhanələrlə aldatmağa çalışıb. Lakin onlar bu "əməliyyatdan" şübhələniblər və bunu kompüterlərinə haker hücumu kimi anlayıblar.

### Əli Kərimli yaxşı olar ki, ultrabənövşəyi lampa işığında bir dəfə əllərinə baxsın!

Nə haker hücumu? Əslində, Əli Kərimlinin tapşırığı əsasında İlham Hüseyn online dələduzluq edərək, həmin şəxslərin Kompüterlərinə məsafədən idarəetmə proqramları yükləməyə və orada nələrin olduğuna əmin olmaq istəyibmiş. Cəmil Həsənli yazdığı statusda hətta həmin proqramın adını da qeyd edir. Təbii ki, o bu proqramın nə olduğunun mahiyyətini bilmədiyi üçün belə yazıb. Pulsuz məsafədən idarəetmə proqramı olan "AnyDesk" hakerin nəyinə gərək?

Budur, Əli Kərimlinin "siyasəti"! Dələduzluq, yaramazlıq, şər-böhtan, ağ yalanlar uydurmaq və hər şeyi də yumarlayıb hakimiyyətin üstünə atmaq cəhdi. Bu kimi çirkinlikləri edən Əli Kərimli yaxşı olar ki, ultrabənövşəyi lampa işığında bir dəfə əllərinə baxsın!

***Rövşən RƏSULOV***

***P.S. Çoxlu sayda məsafədən idarəetmə proqramları pulsuz formada internetdə əlçatandır. Təbii ki, buna qarşı tərəfin özünün razılığı olmalıdır ki, həmin şəxsin kompüterinə müdaxilə edə biləsən. Bu qədər bəsit! Amma haker o qədər də savadsız deyil ki, "AnyDesk"dən istifadə etsin...***

# Erməni ilə həmrəy olan riyakarlar...

*Nədir AXCP-nin azarı?...*

Bu gün Azərbaycan ölkəsi inkişaf etmiş ölkələr sırasında ən yüksək pillədədir. Azərbaycan dinamik inkişaf yolunda irəliləyir, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir, ölkəmizdə zamanın çağırışlarına uyğun olaraq genişmiqyaslı islahatlar həyata keçirilir, ölkəmizin qüdrətinin daha da artmasına xidmət edən mühüm addımlar atılır. Azərbaycan dövlət başçısının apardığı siyasət ona köklənib ki, hər bir Azərbaycan vətəndaşı özünü güclü dövlətin layiqli bir vətəndaşı kimi hiss edə bilsin. Humanist olması ilə yanaşı, Azərbaycan Prezidenti milli maraqlarda qətiyyən güzəştə getmir.

### Rəzil "beşinci kalon"un satqın "sülaləsi" bu uğurları həzm edə bilmir...



Niyə, çünki xarici qüvvələrin işlənib atılmış tryapkalarıdır. "Beşinci kalon"un satqın "sülaləsi" olan Əli Kərimli, Sevinc Osmanqızı, Cəmil Həsənli, Qənimət Zahid, Xədicə İsmayıl, Vidadi İskəndərlini, Arif Məmmədovu və bu kimi erməniyə satılanları niyə bu uğurlar narahat edir, onları nə maraqlandırır? Bəllidir. Bu günlərdə öz adına "layiq" danışan satqın Əli Kərimli sosial şəbəkələrdə çıxışı zamanı deyir ki, "əgər ölkənin daxilində ciddi direniş olmasaydı, bu gün baş verənlər, olmayan qələbədən danışmaq olmayacaqdı. Ancaq yaxın zamanlarda istəyimizə çatacağıq. Bunu bilin, çünki biz meydanda olanda dünya bizi eşidəcək!". Nə qədər rəzil düşüncə! Nə qədər alçaq fikirlər. Belə də "düşünməlidirlər". Çünki xarici qüvvələrin təsiri altında, onlardan maliyyə asılılığında olan bu satqın, anti-milli ünsürlər və onların təlimatçıları hər cür dövlət mənafeyini satmağa, Vətəninə xəyanət etməyə hazırdır. Çünki "beşinci kalon"un satqınları xarici anti-Azərbaycan dairələrdən aldığı pullarla ölkəmizə, müstəqilliyimizə qarşı mübarizə aparan erməni lobbisi və terrorçularla həmişə bir səngərdə yer alan anti-milli ünsürlərdir. Və...

### Tarixin zibilxanasına atılmış bu "eksponatlar"....

Anti-Azərbaycan dairələrin əlaltısı qismində çıxış edən, siyasi fəallığı siyasi satqınlıq kimi qavrayan Arif Məmmədov, Ramiz və Leyla Yunuslar, Cəmil Həsənli, Əli Kərimli, Sevinc Osmanqızı, Gültəkin Hacıbəyli və bu kimilər açıq şəkildə ermənipərəst mərkəzlərin direktivlərinə əsaslandıqlarını ortaya qoyurlar. Bir həqiqəti anlamaq lazımdır ki, milli dönüklərin, xəyanətkar ünsürlərin bəd niyyətləri iflasa məhkumdur. Məğlubiyyət, uğursuzluq və bacarıqsılıq boyunlarına biçilib bu satqınların və artıq tarixin zibilxanasına atılmış "eksponatlar"dır.

Fizikadakı adi hərəkət qanununa görə, dalğa bir yerdə qala bilməz, o, fasiləsiz olaraq irəli və geri hərəkət etməlidir. Tarix də elədir. İctimai həyatın çirkin ifrazatı radikal ruhlu müxalifətin sıralarında yer aldığına görə o nə isə etmək, bacarmaq, yaratmaq iqtidarında deyil. Bir də deyirlər ki, dəniz çirkab götürmür, o, yad cisimlərdən xilas olmaq üçün güclü dalğaları ilə həmin yad cisimləri vurub sahilə çıxarır. Öz doğuşu və təşəkkülü ilə ən yeni tariximizin ikrahdoğurucu səhifələrindən birini yazmış radikal, anti-milli müxalifət də bu gün cəmiyyətimizin kükrəyən inkişaf ahənginin miqyaslarına tab gətirməyərək siyasi səhnədən silinməkdə, çökməkdə, iflas etməkdədir.

### Təfəkkürü şikəst, əməlləri iyrənc...

Bu şikəst təfəkkürlü saxta əməl virusları istər seçki kampaniyaları dövründə, istər ölkəmizdə keçirilən yüksək tədbirlər ərəfəsi, istər dünya dövlətlərinin "soyuq müharibə" ilə - koronavirusla mübarizə apardığı zaman, istərsə də 30 illik doğma dədə-baba torpaqlarımızın həsrətinə düz 44 gün ərzində apardığımız haqq yolunda ədalətin, bütövlüyümüzün və nəhayət, Qarabağ Azərbaycanındırsa qovuşmağımıza bütün türk dünyası sevincimizə şərik olduğu halda, erməniyə yalaqlıq edən radikal müxalifət virusları sosial şəbəkələrdə naqislik, satqınlıq və alçaqlıq edərək hakimiyyətə, ictimaiyyət nümayəndələrinə, ziyalılara, eləcə də onların şər-böhtan kampaniyalarına dəstək verməyən insanlara qarşı qeyri-əxlaqi davranışlar, təhqirlər deməkdədirlər. Cəmiyyətə özünü "ana" müxalifət kimi sırımağa çalışan satıb-satılan Əli Kərimliyə və onun "silahdaşları" - Qənimət Zahid, Azər Əhmədov, Natiq Ədilov, Xədicə İsmayıl, Türkel Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Arif Məmmədov, Sevinc Osmanqızı, Vidadi İskəndərli və bu kimi məfhumlar əxlaqı korlanmış "sosial media qəhrəmanları"dır.

### Artıq ictimaiyyət....

Sosial şəbəkə dəllallarının qanun çərçivəsində cəzalarını almağı tələb edir!

Belə bir atalar sözü də var: "düşməni başqa yerdə axtarmaq lazım deyil". Həmçinin belə bir deyim də var: "xəyanət ölümdən betər bir şeydir və bunu, sadəcə, anlamaq lazımdır". Lakin bu əxlaqsız və mənəviyyatsız erməni çörəyi yeyənlər üçün xəyanət etmək ən adi bir məsələ olduğu kimi, anlamaqları isə mümkünsüzdür. Çünki Əli Kərimli və onun ətrafında olan əxlaqsız və satqınların "anlaya" biləcək "başı" da yoxdur. Və bu gün sorosun tör-töküntüləri, çör-çöpləri - Əli Kərimli, Cəmil Həsənli, Vidadi İskəndərli, Sevinc Osmanqızı, Gültəkin Hacıbəyli, Arif Məmmədov kimi sosial şəbəkə dəllalları bilməlidir ki, bu gün Azərbaycan dövləti elə bir inkişaf səviyyəsinə çatıb ki, qanundan yan keçmək, gizlənmək, digər vətəndaşlarla müqayisədə daha böyük üstünlüklər əldə etmək mümkün deyil, kimliyindən, tutduğu vəzifədən asılı olmayaraq hər kəs törətdiyi əməllərin cəzasının qanun çərçivəsində almalıdı və alacaq da! Çünki Vətənini, dövlətini, xalqını satanların bir adı var - NANKORLUQ və ƏXLAQSIZLIQ! Bu satqınlar bilməlidirlər etdikləri əməlin bədəli ağır olacaq və gec-tez xalqın qarşısında ən ağır cəzalarını alacaqlar, özü də bağışlanılmayan cəzalarını!

***Rəfiqə HÜSEYNOVA***

# “Moskva Müqaviləsi imzalananda erməni dövləti yox idi”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*

**“Ermənistan Respublikası ümidsizlik və bölünmə içində xilas olmağı gözləyirdi. Bunun haradan gələcəyini- yalnız təxmin etmək olar “(Anton Denikin).**

**III YAZI**

*əvvəli burada*

https://sia.az/az/news/politics/868267.html

İrəvandakı dəyirmi masada bu cür tarixi həqiqətlərə məhəl qoymamağın başqa bir tipik nümunəsi. Ermənistan Respublikası Milli Elmlər Akademiyası Tarix İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru Qayane Mahmuryan, Moskva müqaviləsinə gedən yolun Aleksandropoldan keçməsi və ermənilərin uduzduğu müharibə ilə bağlı həqiqətə meydan oxumağa qərar verdi. Mahmuryan, “Moskva müqaviləsi Aleksandropol müqaviləsinə əsaslana bilməz- ikincisi təsdiq edilmədiyi üçün” iddiası irəli sürüb. Bu, erməni mütəxəssislər tərəfindən tanınan və tez-tez təkrarlanan bir mübahisədir, öz də yalnız mütəxəssislər tərəfindən deyil. Bəs Aleksandropol müqaviləsi təsdiqlənməsə nə olardı? Axı türk qoşunları bu müqavilənin 2-ci maddəsi ilə müəyyən edilmiş sərhədlər daxilində qalmağa davam etdi. 1921-ci il Moskva Müqaviləsi yalnız türklərin 1878-ci ildə itirilmiş ərazilərinin yenidən əldə edilməsini təsdiqlədi.

Və Mahmuryanın diqqət yetirmək istəmədiyi növbəti vacib məqam. Aleksandropol Sülh Müqaviləsini təsdiqləyən heç kim olmadığı üçün sadə bir səbəblə təsdiq edilmədi. Bu razılaşmanın bir tərəfi- Ermənistan Respublikası bütün orqanları ilə birlikdə “yoxa çıxdı”. Burada hüquqi məntiq aydın görünür. 1920-ci ilin dekabrına qədər, yəni Sovetləşmə dövründə, Ermənistan Respublikası RSFSR və Türkiyə ilə müharibə vəziyyətində idi.

28 Oktyabr 1920-ci ildə Ermənistan Respublikası ilə RSFSR arasında İrəvanda sülh müqaviləsi layihəsi razılaşdırıldı, lakin heç vaxt imzalanmadı. RSFSR ilə Ermənistan Respublikası arasındakı müharibə vəziyyəti, hazırlanmış sülh müqaviləsinin tərəflərindən birinin- Ermənistan Respublikasının ləğvi səbəbindən avtomatik olaraq yox oldu. Eynən, Aleksandropol Sülhü də belə oldu, ancaq Ermənistan Respublikası ilə Türkiyə arasında başqa bir sülh müqaviləsi bağlanmadı. Aralarındakı müharibə vəziyyəti, heç bir şərt və sülh müqaviləsi olmadan tarixdə “itdi”. Yenə də bu, hərbi münaqişə tərəflərindən birinin - Ermənistan Respublikasının ləğvi səbəbindən baş verdi.

Qayane Mahmuryan iddia edir: “Moskva Müqaviləsi, şübhəsiz ki, diplomatik sənəddir və bu da şübhəsiz beynəlxalq hüquq normalarını pozur. Türk ordusu tərəfindən işğal edilsə də, heç kimin Ermənistan Respublikasına məxsus əraziyə sərəncam vermək hüququ yox idi”.

Lakin beynəlxalq hüquqa görə, bu “dövlət”in- Ermənistan Respublikasının ləğvi səbəbi ilə onların buna haqqı var idi.

Ermənistan Respublikası 1920-1921-ci illərdə Antantaya əsaslanan “qərb vektoru” seçimi səbəbiylə uduzdu. Məsələn, 1920-ci ilin fevralında Moskvadakı danışıqlarda Sovet nümayəndə heyətinin Türk nümayəndə heyətini qəbul edərkən türklər niyə erməni nümayəndə heyətinin iştirakına etiraz etdi? Məsələ burasındadır ki, 1920-ci ilin avqust ayında bağlanan Sevr müqaviləsi Türkiyənin “Ermənistan Respublikası”nı (əlbəttə ki, “Qərbi Ermənistan” da daxil olmaqla) tanımasını tələb edirdi. Türklərin diktə etdiyi Aleksandropol müqaviləsinin 10-cu maddəsində Ermənistan Respublikasından “Sevr müqaviləsinin tanınmaması və ləğv edilməsini” tələb edildi. Bu, Ermənistan Respublikasının Türkiyə tərəfindən tanınması şərtlərindən biri idi. Sovet Rusiyasının Aleksandropol müqaviləsini etibarsız elan etməsi,



Türkiyənin Ermənistanı tanıması şərtini- Sevrin ləğvini geri qaytardı. Bunsuz türklər erməni nümayəndə heyətini Moskvadakı danışıqlara qəbul etməyə razı olmadılar. 1-ci maddədə Moskva Müqaviləsi “Sevr”i rədd etdi:

“RSFSR Hökuməti, Türkiyə ilə əlaqəli və Türkiyə Milli Hökuməti tərəfindən tanınmayan, indi Böyük Millət Məclisində qəbul edilməyən beynəlxalq aktları tanımamağa razıdır”.

Budur- “tarixçi” Mahmuryanın dəyirmi masadakı şərhindəki uşaq düşüncəsinin başqa bir nümunəsi. RKP (b) Mərkəzi Komitəsinin 5 iyun 1921-ci il tarixli Qafqaz Bürosunun Qarabağın Azərbaycana verilməsi barədə qərarının qanunsuz olduğunu iddia etdi, hansı ki, RSFSR-nin partiya orqanının qərarı ilə Azərbaycanın tərkibində Dağlıq Qarabağ muxtar vilayəti yaradıldı.

“... Nə Rusiya, nə Azərbaycan, nə də Ermənistan Xarici İşlər Nazirliyi və ya digər dövlət orqanları Qarabağla bağlı heç bir qərar vermədi”- Mahmuryan deyib.

Birincisi, biz artıq Sovet respublikalarının suverenliyinin şərtli bir şey olduğuna işarə etdik. Xüsusilə, Sovet Ermənistanının Xarici İşlər üzrə Xalq Komissarı Aleksandr Bekzadyan, 1921-ci ilin aprelində Moskva Müqaviləsi bağlandıqdan sonra, Xalq Komissarı Çiçerinə verdiyi bəyanatında “yeni qurulan Sovet respublikasını suverenliyi son dərəcə genişləndirilə bilən, son dərəcə şərtli bir anlayışdır”...

İkincisi, “tarixçi” Mahmuryanın izah edilməlidir: RKP (b) yalnız RSFSR-nin bir partiyası deyil, eyni zamanda bütün Sovet respublikalarında - konkret olaraq bütün Zaqafqaziyada vahid bir hakim partiya idi - Ermənistan SSR-də, Azərbaycan SSR-də və Gürcüstan SSR-də. Ancaq bu, ümumiyyətlə, dar bir partiya rəhbərliyi dairəsində mühüm bir siyasi qərar verildikdə və sonra dövlət orqanlarının qərarları ilə rəsmiləşdirildiyi zaman ortaq bir dünya təcrübəsidir. “Qarabağ” da belə idi. Tarixçi Mahmuryanın 1921-ci il Moskva müqaviləsi ilə bağlı yalan uydurmalarının və fantaziyalarının tam dəsti Noyan Tapan TV proqramında eşidilə bilər. Mahmuryanın meyli və Rusiyaya qarşı düşmənçiliyi başa düşüləndir. Uzun müddətdir “1-ci Respublika” tarixi dövrünün İngiltərə-Amerika istiqamətində çalışır.

Erməni KİV-lərində, barədə nəşrlərdə, keçirilmiş dəyirmi masa “Ermənistan və Rusiya mütəxəssislərinin Moskva Müqaviləsinin qiymətləndirməsindəki mövqelərin ümumiyyətlə bir-birindən uzaqlaşdığı” iddia edildi. Erməni qiymətləndirməsinin digər oxşar variantı:

“Erməni və rus mütəxəssislərin Moskva müqaviləsinə yanaşmalar bir çox cəhətdən yenə də maraqlarına əsaslanaraq fərqlənir”.

Rusiya Qafqaz Araşdırmaları Elmi Cəmiyyətinin sədri Aleksander Krılov dəyirmi masada “ermənilərin tarixi şikayətləri mövzusu emosional olaraq rəngləndi” və “Rusiyanın tarixi günahı ilə bağlı bir nəticə çıxarıldı” mənasında diplomatik olaraq danışdı.

Ancaq məlum olduğu kimi, bu, hər iki tərəfdə baş verənlərə nisbətən mülayim bir qiymətləndirmədir. Əslində, Yerevanda keçirilən dəyirmi masada erməni və rus tarixçiləri arasında 1921-ci il Moskva müqaviləsi ilə bağlı “uyğunsuzluqlar” belə bir xarakter aldı və rus tarixçilərinin erməni “həmkarları”nın mövqeyinə dair tənqidləri o qədər ardıcıl və güzəştsiz idi ki, Dəyirmi masanın erməni təşkilatçısı “Xalçanın altındakı zibilləri süpürmək” məcburiyyətində qalmışdı - iclası dayandırmaq və təcili fasilə vermək üçün erməni mətbuatı təmsilçilərini salondan çıxartmaq məcburiyyətində qaldı.

Tədbirdən sonra dəyirmi masanın rusiyalı iştirakçısı, MDBMİ-nin aparıcı tədqiqatçısı Sergey Markedonov faktdan sonra erməni və rus tarixçilərinin mövqelərinin yaxınlaşması üçün bir düstur tapdı:

“Bu spesifik şərtlərdə Sovetləşmə, erməni-türk qarşıdurmasının davam etməsi ilə müqayisədə daha az pis bir şey idi”.

Tarix elmləri doktoru Qayane Mahmuryan onunla tam razılaşdı:

“1920-ci ildə Ermənistanın üzləşdiyi ən çətin vəziyyətə gəldikdə, o zaman, fikrimcə, bolşevik Rusiyası ilə kamalistlər arasında seçim etmək lazım gəlsəydi, o zaman bolşeviklər daha yaxşı olardı”.

Erməni tarixçiləri 1921-ci il Moskva Müqaviləsinin mənasını şərh edərkən bir növ hiylənin şahidi oluruq. Burada nüanslar vacibdir. Markedonov sanki günahı Rusiyadan bolşeviklərin üzərinə atır. Və Mahmuryan diqqətini bolşeviklərə yox, bolşevik Rusiyasına yönəldir. Bu məntiqdə Rusiya hələ də Ermənistan üçün “az zalım” rolunu oynayır. Rusiya haqqında “daha ??az zalım” mesajı Ermənistanda hazırda formalaşdırılan tarixi yaddaş üçün xarakterikdir. Beləliklə, məsələn, oxşar tarixi bir məntiqdə, erməni vilayətini yaradan Çar Rusiyası da “daha ??az zalım”dir.

Erməni tarixçilərinin yazılarında çar Rusiyasının tənqidləri çoxdan “avtokratiya” adı altında zəif maskalanmış bir rusofobiya xarakteri daşıyırdı. Sovet Rusiyası və Sovet İttifaqı Ermənistan üçün yenə də “daha az zalım”dir. Eynilə, erməni tarixçiləri “min illik dostluq”dan danışarkən müasir Rusiya Federasiyasına baxmağı təklif edirlər. Məsələn, dəyirmi masada Ermənistan Milli Arxivinin keçmiş rəhbəri, tarix elmləri doktoru, prof. Amatuni Virabyan, Rusiya Federasiyasının Zaqafqaziyada mövcud siyasətinə dair sözün əsl mənasında aşağıdakıları bildirdi:

“Rusiyalı siyasətçilər və diplomatlar üçün bir şey söyləmək, başqa bir şey etmək, üçüncüsünü düşünmək adətdir: bu, təbiidir”.

Bu arada, Ermənistan ətrafındakı mövcud vəziyyətdə bu cür əsas tarixi yanaşmalar erməni tarixçiləri tərəfindən kökündən dəyişdirilməlidir. Tarixi yaddaşın çoxvektorlu qurbanlıq əsasında qurulması siyasəti açıq şəkildə erməni millətinə fayda gətirmir.

* * *

(1) Xüsusi olaraq. Budur prof. Ovanesyanın daha bir uyğunsuzluğu. Moskva Müqaviləsinin 2-ci maddəsinə əsasən, Türkiyəyə göndərilən və oradan Batumi yolu ilə ixrac olunan malların pulsuz, rüsumsuz tranziti, yəni heç bir rüsum və vergi alınmadan Batumi limanından istifadə etmək hüququ verildi. Prof. Ovanesyan bu cür imtiyazların beynəlxalq hüquq normalarına zidd olduğunu müdafiə edir. Ancaq burada suveren bir dövlətin sərbəst limana qədər güzəştli ticarət rejimləri qurmasına beynəlxalq hüququn hansı normalarının mane olduğu aydın deyil. Məsələn, Çinlə qeyri-bərabər müqavilələr beynəlxalq hüquq normalarına zidd idi? Beynəlxalq hüquq ticarət və digər güzəştləri qadağan edir? Bu cür uyğunsuzluqlar prof. Ovanesyanın peşəkar səviyyəsinin aşağı olduğuna dəlildir.

(2) Müasir erməni tarixçiləri arasında rusofobiya, “Rus avtokratiyası”na və Rus Çarına tüpürmək tarixi qapaqlar altında gizlənir. Bu baxımdan, “Şərqi Ermənistan”da “erməni vilayətini” yaradan rus çarlarına və ya rus generallarına bir dənə də olsun abidə olmaması aydındır. I Nikolayın abidəsi haradadır, II Aleksandrın abidəsi haradadır? Nə üçün Ermənistanda Qarabağ xanlığını fəth edən general Yermolovun abidəsi yoxdur, əgər Qarabağa sahib olmaq ermənilər üçün bu qədər vacibdirsə? Niyə hələ Yerevanda Qraf Erivanskinin abidəsi yoxdur? Ancaq digər tərəfdən ... bu yaxınlarda Ermənistanın paytaxtında Taras Şevçenkoya abidə ucaldıldı, bu, çox simvolikdir.

SON

***Müəllif - Dmitri Semuşin***
***Tərcümə - Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

7 may

QARABAĞ AZƏRBAYCANDIR!

## Alman məşqçi Çempionlar Liqasında rekorda imza atıb

**Futbol üzrə UEFA Çempionlar Liqasının yarımfinalında "Real"ı keçərək finala yüksələn "Çelsi"nin baş məşqçisi Tomas Tuhel rekorda imza atıb. Qol.az xəbər verir ki, 47 yaşlı mütəxəssis Çempionlar Liqasının tarixində iki il ardıcıl fərqli klublarla finala adlayan ilk məşqçi olub.**

Almaniyalı çalışdırıcı ötən il PSJ ilə turnirin finalına qədər irəliləmiş, həlledici görüşdə "Bavariya"ya uduzmuşdu. Xatırladaq ki, "Çelsi" finalda "Mançester Siti" ilə qarşılaşacaq.



## "Qalatasaray"ın gənc hücumçusu millimizə qarşı oynayacaq



Futbol üzrə Türkiyə millisinin baş məşqçisi Şenol Güneş heyətə yeni futbolçu cəlb edib. Türkiyə mətbuatının yazdığına görə, yığmanın baş məşqçisi Şenol Güneş "Beşiktaş"ın hücumçusu Cenk Tosunun zədələnərək mövsümü erkən başa vurmasından sonra bu qərarı verib.

Hücum xəttində təkcə Burak Yılmaz və Enes Ünalın qalmasından sonra 68 yaşlı mütəxəssis "Qalatasaray"ın oyunçusu Halil Dervişoğlunu milliyə dəvət etmək qərarına gəlib. 21 yaşlı hücumçu Avro-2020 öncəsi Azərbaycan (27 may) və Şimali İrlandiya (31 may) ilə yoldaşları görüşləri üçün heyətdə yer alacaq. Onun bu matçlardakı çıxışından sonra Avro-2020 üçün yekun heyətdə yer alıb-almayacağına qərar veriləcək.

## Keçi südlü sabunun inanılmaz FAYDALARI

**Keçi südü ilə hazırlanmış gözəllik məhsulları son illərdə getdikcə populyarlaşır. Xüsusilə də keçi südü sabununun dəriyə faydaları saymaqla bitmir. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, bu sabun qara nöqtələrin və sızanaqların əmələ gəlməsinin qarşısını alıraq, ölü dərini təmizləyir və dərinin tarazlığını qoruyur.**

Bəs keçi südü sabununu necə istifadə etməliyik?

Hava çirkliliyindən və xarici amillərdən danışarkən dərimiz həddindən artıq zəhərli maddələrə məruz qalır. Nəticədə, dəri problemləri ilə qarşılaşırıq. Dəri problemlərini aradan qaldırmanın ən təsirli yolu düzgün dəri təmizliyidir. Bu baxımdan keçi südü sabunu köməyimizə gəlir. Dərinin nəm balansını qoruyan keçi südü sabunu, dərini təmizləyərkən, sızanaq kimi problemlərin qarşısını alır.

Keçi südü sabununun dəriyə faydaları aşağıdakılardır:

- Keçi südlü sabun nəmləndirici təsir göstərir. Bu xüsusiyyəti ilə dəri üçün rahatlama təmin edir.
- Həssas dərisi olanlar da bu sabuna üstünlük verə bilərlər. Təbii keçi südlü sabun dərini qıcıqlandırmır.
- Tərkibində selenyum olan keçi südü sabunu dərini günəşin ultrabənövşəyi şüalarından qoruyur.
- Sızanaq və qara nöqtələrin qarşısını almaqla yanaşı dərinin pH səviyyəsini də tarazlayır.
- Dərini qidalandırır və ölü dərinin çıxarılmasına kömək edir.
- Daimi istifadədə dərini yağdan və kirdən təmizləyir.



Bu sabundan necə istifadə edək?

Əvvəlcə dərinizi isladın. Sonra keçi südlü sabunu dərinizə yumşaq bir şəkildə masaj edərək tətbiq edin. Lakin, sızanaqlar varsa, birbaşa üzə çəkməməyə diqqət edin. Bunun əvəzinə əvvəlcə əlinizdə köpükləndin, sonra bölgəyə sürtün. Problemli bir dəriniz varsa, istifadə etməzdən əvvəl mütəxəssislə məsləhətləşmək faydalıdır.

*Ayşən Vəli*

## Koronavirusu bir anda məhv etmək üçün üsul tapıldı

**Texasdakı A&M Universitetindən bir qrup tədqiqatçı SARS-CoV-2 koronavirusun dərhal məhv edə biləcək bir məhsul icad edib. SİA xəbər verir ki, alimlərin araşdırmasının nəticələri Phys.org veb saytındakı press-relizdə dərc edilmişdir.**

Koronavirus məhlulunun keçdiyi paslanmayan polad borularda təcrübə aparılıb. Qurğu cəmi yarım saniyə 72 dərəcə Selsi ilə qızdırıldıqda məhluldakı virusun titri 100 min dəfə azalır. Bu, patogeni zərərsizləşdirmək üçün kifayətdir. Tədqiqatçıların fikrincə, termik müalicə sistemi bu üsulun mövcud istilik, havalandırma və kondisioner sistemlərində istifadə edilməsinə imkan verəcəkdir.

*Elçin*



## Ürək sağlamlığı üçün gecə yuxusuna DİQQƏT EDİN!



Bir qrup alimin apardığı araşdırmalar 6-7 saatlıq gecə yuxusunun ürək sağlamlığı üçün daha faydalı ola biləcəyini ortaya çıxarıb. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, Amerika kardiologiya kollecinin elmi iclasında təqdim olunan araşdırmada, gecə 6-7 saat yatan fərdlərin az və ya çox yatanlarla müqayisədə infarkt, insult riskinin az olduğu aşkar edilib.

2005-2010-cu illər arasında ABŞ-da keçirilmiş Milli sağlamlıq və qidalanma müayinəsi sorğusuna qatılan 14 min 79 orta yaşlı insanın məlumatlarını təhlil edən tədqiqatçılar iştirakçıları gecə yuxu müddətinə görə üç kateqoriyaya bölüblər. Daha sonra, iştirakçıların aterosklerozla əlaqəli ürək xəstəliyi riskini araşdıraraq, yuxu müddəti ilə ürək sağlamlığı arasında vacib əlaqə olduğunu təyin ediblər.

6 saatdan az və ya 7 saatdan çox yatan iştirakçıların ölüm riski daha yüksəkdir. Ürək xəstəliyi ilə əlaqəli səbəblərdən yalnız yuxu miqdarının deyil, eyni zamanda yuxu keyfiyyəti və dərinliyi də vacibdir.

Tədqiqatçılar yaş və genetik xüsusiyyətlər kimi dəyişməz şərtlərlə müqayisədə, pəhriz vərdişləri və asılılıq yaradan maddə istifadəsinin yuxu rejimi ilə yanaşı, ürək xəstəliyinə də birbaşa təsir etdiyini vurğulayıblar.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**